25 oktyabr 2024 №79-80 (2145)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

# Azərbaycan və Ermənistan arasında sülhə az qalıb

## Saziş üzərində işlərin qısa zamanda yekunlaşdırılması barədə təlimat verilib

Oktyabrın 24-də Rusiya Federasiyasının Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş olub.

Görüşdən sonra yayılan məlumatda bildirilir ki, tərəflər ikitərəfli sülh gündəliyinin irəli aparılması, o cümlədən sülh sazişi, sərhədlərin delimitasiyası və demarkasiyası və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

İki ölkənin xarici işlər nazirlərinə "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş" üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.

Qeyd edək ki, Azərbaycan və Ermənistan liderlərinin öncəki görüşlərindən fərqli olaraq, budəfəki məlumatda tərəflər arasında xeyli vaxtdır müzakirəsi gedən və rəsmi açıqlamalarda mətninin əksər hissəsinin razılaşdırıldığı bildirilən sülh sazişinin adı da qeyd olunub. Bu isə düşünməyə əsas verir ki, Kazan görüşü prosesdə əhəmiyyətli irəliləyişə zəmin sayıla bilər.

Yeri gəlmişkən, Tatarıstan paytaxtının Ermənistan-Azərbaycan danışıqları üçün "evsahibliyi" yeni deyil.




19 il əvvəl, 27 avqust 2005-ci ildə MDB dövlət başçılarının Kazanda keçirilən sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın ovaxtkı rəhbəri Robert Koçaryanla görüşü olmuşdu. 2011-ci il iyunun 24-də isə Rusiyanın ovaxtkı Prezidenti Dmitri Medvedevin təşəbbüsü ilə Prezident İlham Əliyevin Ermənistan lideri Serj Sarkisyanla görüşü keçirilmişdi. Hər iki danışıqlar raundu erməni tərəfin kompromissiz mövqeyi üzündən nəticəsiz qalmışdı. Heç bir güzəştə getməməyin real nəticəsini erməni tərəf 2020-ci ilin bu günlərində gördü.

Güman etmək olar ki, Paşinyan "gözü çıxmış qardaşları"nın aqibətlərindən hər halda ibrət alıb.

# Heydər Əliyevə və Çingiz Aytmatova həsr olunan sənədli film Kazanda göstərilib



Kazanda keçirilən BRICS sammitinin mədəni proqramına daxil olan milli filmlərin nümayişi çərçivəsində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevə və görkəmli qırğız yazıçısı Çingiz Aytmatova həsr olunmuş "Planetlə dialoq" sənədli filmi nümayiş etdirilib.

Tədbirin təşkilatçıları bildiriblər ki, Rusiya kinorejissoru Qriqori Naxapetovun "ADM-JACK" kinoşirkətinin istehsalı olan sənədli film böyük şəxsiyyətlərin həyat və çoxşaxəli fəaliyyətindən bəhs edir.

"Mir" kinoteatrında nümayişdən əvvəl filmin müəllifi və rejissoru Q.Naxapetov tamaşaçıların çoxsaylı suallarını cavablandırıb.

Qeyd edək ki, film Bişkekdə yerləşən Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi ilə çəkilib.

# 26 oktyabr Qubadlı Şəhəri Günüdür




Bir aya yaxındır ki, İkinci Qarabağ müharibəsi davam edir. Bu müharibə xalqımız üçün Vətən müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik. Bu müddət ərzində şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edib. Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci il oktyabrın 26-da xalqa müraciətə bu sözlərlə başlamışdı. Dövlət başçısının növbəti tarixi müraciəti 27 il əvvəl Ermənistanın işğal altında saxladığı Qubadlı şəhərinin müzəffər Azərbaycan Ordusu tərəfindən azad olunması ilə bağlı idi.

Qubadlı Vətən müharibəsində Cəbrayıl, Füzuli və Zəngilandan sonra Azərbaycan əsgərinin ayaq basdığı və bayrağımızı ucaltdığı 4-cü rayon mərkəzi idi. Bu qalibiyyət Silahlı Qüvvələrimizin Laçın və Şuşa istiqamətlərində irəliləməsi üçün də mühüm zəmin idi.

Vətən müharibəsinin 30-cu günü idi. Böyük Zəfərə 14 gün qalmışdı...

Qeyd edək ki, Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixdə imzaladığı sərəncamla Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. Sərəncamla 25 oktyabr Qubadlı Şəhəri Günü kimi təqvimimizə daxil olub.

# Bakıda caz havası bitmək üzrədir

XIX Bakı Caz Festivalı çərçivəsində oktyabrın 23-də Azərbaycan Milli Konservatoriyasında Moldovadan olan musiqiçilərin çıxışları təqdim edildi.




Vali Boghean Bandin orijinal improvizasiyaları caz həvəskarlarına, sözün əsl mənasında, böyük bir enerji bəxş etdi.

Musiqi qrupunun Balkan cazının, Avropanın etno-Şərq və klassik elementlərin birləşməsindən ibarət olmaqla hər biri özünəməxsus müasir üslubda maraqlı bir proqramla dinləyicilərin könlünü oxşadı. Musiqiçilərin ifasında səslənən əsərləri birləşmiş xüsusi janr kimi müəyyən etmək çətindir. Bu musiqi buketi müxtəlif hissləri və hər kəsin özünü tapa biləcəyi bir atmosfer yaradır.

Oktyabrın 25-də "Fairmont hotel"də yerləşən Caz-klubda Mədinə Sultan və italyan Lusi-Zanchini Masciari triosu çıxış edəcək. İtalyan musiqiçilər "GONE" albomlarında yer alan kompozisiyaları səsləndirəcəklər. İki il əvvəl buraxılmış albom ötən müddətdə musiqisevərlər tərəfindən maraqla qarşılanır.

11 ölkədən ifaçı və kollektivləri bir araya gətirən festival sona yaxınlaşır. Festivalın bağlanış konserti 27 oktyabrda olacaq.

mövzuya dair əlavə səh. 5-də

# Yaşıl STEAM Azərbaycan Festivalı

## Mədəniyyət Nazirliyinin bədii təhsil ocaqları da festivalda iştirak edir



24–25 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində Elm və Təhsil Nazirliyinin və COP29 Sədrliyinin dəstəyi, "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə Beynəlxalq "Yaşıl STEAM Azərbaycan" Festivalı (SAF – 2024) keçirilir.

STEAM – elm, texnologiya, mühəndislik, sənət və riyaziyyat (Science, Technology, Engineering, Art, Math) sözlərinin ingilis dilində baş hərfləridir və bu fənlərin inteqrasiyalı tədrisini ehtiva edən disiplinlərarası və tətbiqi yanaşmaya əsaslanan təhsil fəlsəfəsidir.

Bu il 4-cü dəfə keçirilən "STEAM Azərbaycan"da ilk dəfə Mədəniyyət Nazirliyinin bədii təhsil ocaqları da iştirak edir.

Festivalda "H2 Grand Prix PRO", "FlyTech", "CubeSaT", "VEX IQ Competition", "VEX Robotics Competition", "VidX", "Engineers of Future", "Green initiatives" və "Green Coding" kateqoriyaları üzrə yarışlar təşkil olunur.

davamı səh. 3-də

# "İlyas Əfəndiyev ideologiyaya deyil, ədəbiyyata xidmət edib"

## Xalq yazıçısının yenidən nəşr olunan biblioqrafiyasının təqdimatı




Oktyabrın 24-də Milli Kitabxanada XX əsr Azərbaycan ədəbiyyatının klassiki, Xalq yazıçısı, görkəmli dramaturq İlyas Əfəndiyevin (1914-1996) 110 illik yubileyinə həsr olunmuş tədbir və "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr olunan "İlyas Əfəndiyev. Biblioqrafiya" kitabı və "İlyas Əfəndiyev" adlı elektron məlumat bazasının təqdimatı keçirilib.

Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə keçirilən tədbirdə rəsmilər, elm, ədəbiyyat və mədəniyyət xadimləri iştirak ediblər.

Tədbiri kitabxananın direktoru professor Kərim Tahirov açaraq qeyd edib ki, İlyas Əfəndiyev Azərbaycan ədəbiyyatında öz yaradıcılıq məktəbi olan görkəmli şəxsiyyətlərdən biridir. Onun yaratdığı ədəbi və teatr məktəbi bu gün də davam edir. Ədibin bir sıra əsərləri teatrlarımızın repertuarını bəzəyir.

Kərim Tahirov Milli Kitabxana tərəfindən yazıçının yaradıcılığına ehtiram əlaməti olaraq "İlyas Əfəndiyev. Biblioqrafiya" kitabının təkmilləşdirilərək yenidən nəşr edildiyini bildirib.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxışında biblioqrafiya kitabının əhəmiyyətini yüksək qiymətləndirib. Qeyd olunub ki, Mədəniyyət Nazirliyi Milli Kitabxana ilə birgə bir sıra görkəmli yazıçıların, mədəniyyət xadimlərinin biblioqrafiya kitablarının bu salonda təqdimatlarını keçirib.

Nazir müavini bildirib ki, dövlət başçısı tərəfindən ədəbiyyat və mədəniyyət xadimlərimizə hər zaman böyük qayğı və diqqət göstərilir. İlyas Əfəndiyevin 90 və 100 illik yubileylərinin də dövlət səviyyəsində qeyd olunması bunun bariz nümunəsidir.

Bildirilib ki, İlyas Əfəndiyev yaradıcılığında xalqımızın taleyüklü məsələləri öz əksini tapıb. Onun "Xurşidbanu Natəvan", "Hökmdar və qızı" kimi əsərləri bu mənada diqqətəlayiq nümunələrdir. Bu əsərlər həm də yazıçının cəsarətinin göstəricisidir.

Fərid Cəfərov biblioqrafiya kitabının İlyas Əfəndiyevin zəngin ədəbi irsinin təbliğinə qiymətli töhfə olduğunu deyib, nəşrin ərsəyə gəlməsində zəhməti keçənlərə təşəkkürünü bildirib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu biblioqrafiya kitablarının xüsusilə tarixi üçün çox vacib sənəd və sənədlər toplusu olduğunu deyib. Millət vəkili müasir Azərbaycan dramaturgiyasının formalaşmasında yazıçının rolunu xüsusi qeyd edərək "İlyas Əfəndiyev teatrı" anlayışının meydana gəldiyini, əsərləri əsasında hazırlanan tamaşaların böyük rəğbətlə qarşılandığını bildirib.

davamı səh. 2-də

# Moskvada "Görüş yeri Bakı"

Moskvanın Şimal İnzibati Dairəsinin Aeroport rayonunda, keçmiş "Bakı" kinoteatrının binasında "Görüş yeri Bakı" regional mərkəzi açılıb.



Bu barədə Rusiya paytaxtının Şəhərsalma siyasəti departamentinin mətbuat xidməti məlumat yayıb.

Moskva Hökumətinin naziri, Moskva şəhərsalma siyasəti departamentinin rəhbəri Vladislav Ovçinski qeyd edib ki, burada müxtəlif mühazirələr oxunacaq, ustad dərsləri, xoreoqrafiya, vokal, şahmat və digər istiqamətlər üzrə dərslər keçiriləcək.

"Yenilənmiş binanın sahəsi 13 min kvadratmetrdən çoxdur. Mərkəz dördmərtəbəlidir. Noyabrda burada moskvalılar üçün çoxfunksiyalı və mədəni-istirahət mərkəzinin açılması planlaşdırılır, binada onlar müxtəlif mühazirələr, ustad dərsləri, xoreoqrafiya, vokal, şahmat və digər istiqamətlər üzrə dərslərdə iştirak edə biləcəklər", – deyə o bildirib.

Xatırladaq ki, "Bakı" kinoteatrı 1974-cü ildə tikilib. Binanın dizaynında ənənəvi Azərbaycan memarlığının motivlərindən istifadə olunub.

Rusiyalı mütəxəssisin BXA-da ustad dərsləri



səh. 2



"Musiqi kimliyimiz"də Aşıq Molla Cümə yad olunub

səh. 3



"İncilər" Naxçıvanda azyaşlılardan ibarət ilk rəqs ansamblıdır

səh. 4

# İlham Əliyev Tatarıstanın "Dostluq" ordeni ilə təltif olunub

## Tatarıstan rəhbəri Azərbaycana öz istehsalları olan avtomaşın hədiyyə edib




Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub.

Dövlətimizin başçısı qardaş torpaqda olmaqdan məmnunluğunu bildirib və Tatarıstan Respublikasına əlamətdar hadisə – BRICS sammitinə ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırıb: "Bu, Rusiya Federasiyası rəhbərliyinin respublikaya, şəxsən Sizə, Tatarıstan vətəndaşlarına xüsusi münasibətinin təzahürüdür, həmçinin Tatarıstanın Sizin rəhbərliyinizlə nail olduğu potensialın göstəricisidir. Çünki belə bir irimiqyaslı sammitin keçirilməsi, əlbəttə ki, tədbirlərin, dövlət başçılarının ikitərəfli görüşlərinin təşkili üçün resursların, infrastrukturun, o cümlədən mehmanxana şəbəkəsinin olmasını tələb edir".

Prezident qeyd edib ki, Tatarıstan ilə Azərbaycan arasında münasibətlər Rusiya Federasiyasının və Azərbaycanın dövlətlərarası münasibətlərinin mühüm tərkib hissəsidir. İkitərəfli münasibətlərin dinamikası, o cümlədən Tatarıstan-Azərbaycan ikitərəfli formatı çox yaxşıdır.

Rüstəm Minnixanovun ötən il Azərbaycana, o cümlədən yenidən qurulan Cəbrayıl və Zəngilan rayonlarına səfərinin əhəmiyyəti vurğulanıb.

Görüşdə Prezident İlham Əliyevə Tatarıstanın "Dostluq" ordeni təqdim olunub. Qeyd edilib ki, dövlətimizin başçısı Tatarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın inkişafına, xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfəsinə görə təltif olunur.

Rüstəm Minnixanov həmçinin Tatarıstanda "Sollers" şirkətinin istehsalı olan üç "Sollers Atlant" avtomaşınının Azərbaycan Respublikasına hədiyyə edilməsi haqqında şəhadətnaməni Prezident İlham Əliyevə təqdim edib.

Azərbaycan Prezidenti Rüstəm Minnixanova təşəkkür edərək bildirib ki, Tatarıstan Respublikasının yüksək ordeni ilə təltif olunmaq böyük şərəfdir. O, ölkəmizə edilən hədiyyəyə görə də təşəkkürünü ifadə edərək bu avtomaşınların Tatarıstan rəhbərinin ötən il olduğu bölgələrə – Zəngilana və Cəbrayıla göndəriləcəyini deyib: "Orada onlara çox ehtiyac var".

Qeyd edək ki, "Sollers Atlant" avtomobilləri 2022-ci ildən Tatarıstanın Alabuqa şəhərindəki zavodda istehsal olunur. Avtomobilin həm yük, həm də sərnişindaşıma modelləri var.

# Prezident Türkiyə və Macarıstan rəhbərlərinə məktub göndərib

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 23-də Ankarada baş vermiş terror aktı ilə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu göndərib.

"Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri bizi olduqca sarsıtdı. Biz bu xain terror aktını şiddətlə qınayır, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm", – deyə məktubda bildirilir.

***

Prezident İlham Əliyev Macarıstanın milli bayramı münasibətilə bu ölkənin Bas naziri Viktor Orbana təbrik məktubu göndərib.

Məktubda qeyd olunur ki, qarşılıqlı inam və etimada əsaslanan və gündən-günə yeni məzmunla zənginləşən Azərbaycan-Macarıstan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin bütün sahələrdə genişləndirilməsinə, o cümlədən strateji tərəfdaşlığımızın daha da dərinləşməsinə xüsusi önəm veririk.

"Əminəm ki, Azərbaycan-Macarıstan dostluq münasibətlərinin və strateji tərəfdaşlığının möhkəmləndirilməsi və inkişafı yolunda birgə səylərimizi dövlətlərimizin maraqları və xalqlarımızın mənafeyi naminə həm ikitərəfli qaydada, həm də çoxtərəfli müstəvilərdə, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik", – deyə məktubda vurğulanır.

23 oktyabr Macarıstanda dövlət bayramı – "Macarıstan İnqilabı Günü" kimi qeyd olunur. 23 oktyabr 1956-cı ildə Macarıstanda antisovet çıxışları başlanıb. SSRİ və "Varşava bloku" ölkələrinin hərbi kontingentinin Budapeştə yeridilməsi ilə bu üsyan yatırılıb.

# Rusiyalı mütəxəssisin BXA-da ustad dərsləri

Ural Xoreoqrafiya Kollecinin (Rusiya Federasiyası) müasir rəqs və balet gimnastikası üzrə müəllimi Kseniya Xomutova Bakı Xoreoqrafiya Akademiyasında (BXA) ustad dərsləri keçib.



Öncə Kseniya Xomutova ilə BXA rəhbərliyinin görüşü olub. Qonağa akademiyanın fəaliyyəti haqqında məlumat verilib, təhsilin pillələri, tədris prosesində tətbiq olunan yeniliklərdən söz açılıb. Eyni zamanda qonaqla müasir rəqs və balet gimnastikası ilə bağlı fikir mübadiləsi aparılıb.

Sonra Kseniya Xomutova tərəfindən BXA-nın tam orta təhsil, orta ixtisas təhsil və bakalavr pillələrinin şagird və tələbələrinə müasir rəqs və balet gimnastikası üzrə ustad dərsləri keçirilib.

Rusiyalı mütəxəssis müasir rəqs, klassik rəqs və balet gimnastikası ilə bağlı fikirlərini bölüşüb, rəqs elementlərinin düzgün icrasına dair tövsiyələr verib.

# Azərbaycan Qlobal Cənub və Qlobal Şimal arasında əməkdaşlığa töhfə verir

## Prezident BRICS + iclasında ölkəmizin logistik imkanlarını diqqətə çatdırıb

Xəbər verildiyi kimi, 22-24 oktyabr tarixlərində Rusiya Federasiyasının BRICS təşkilatına sədrliyi çərçivəsində Kazan şəhərində (Tatarıstan) XVI BRICS Sammiti keçirilib. Sammitə BRICS üzvü olmayan, amma bu əməkdaşlıq platformasına qoşulmaq istəyən dövlətlər də dəvət edilib.




Oktyabrın 24-də Kazanda XVI BRICS Sammitinin genişləndirilmiş "Outreach"/"BRICS+" formatının (Outreach – ingiliscə potensial tərəfdaşlarla əlaqələrin qurulması mənasını verir) ilk plenar iclası olub.

"Kazan Expo" Beynəlxalq Sərgi Mərkəzində keçirilən toplantıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak edib.

Əvvəlcə XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatı nümayəndə heyətlərinin başçıları birgə foto çəkdiriblər.

BRICS+" formatına qatılan ölkələrin rəhbərləri toplantıda çıxış ediblər.

***

Toplantıda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dəvətə görə Rusiya Prezidenti Vladimir Putinə təşəkkürünü bildirib və Rusiya Federasiyasını BRICS-də uğurlu sədrliyi münasibətilə təbrik edib.

Prezident İlham Əliyev deyib:

– Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır, bu, 2020–2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib. Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir.

Öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırırıq.

Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının – COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik.

***

Prezident Vladimir Putin deyib:

– Hörmətli cənab Prezident, çox sağ olun. Həqiqətən, Siz tamamilə düzgün qeyd etdiniz ki, Azərbaycanın rolu, xüsusilə logistika dəhlizlərinin inkişafında çox mühümdür. Eyni zamanda, zənnimcə, Rusiyanın, həmçinin digər BRICS dövlətləri ilə artan əmtəə dövriyyəsini nəzərə alsaq, Qazaxıstan Prezidentinin indicə dediyi kimi, bu da böyük əhəmiyyətə malikdir.

***

Qeyd edək ki, BRICS onu təsis edən beş ölkənin – Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikasının ingilis dilində baş hərflərinə (Brazil, Russia, India, China, South Africa) uyğun olaraq belə adlandırılıb.

Bu formatın əsası 2006-cı ildə Sankt-Peterburq İqtisadi Forumunda Braziliya, Rusiya, Hindistan və Çinin iqtisadiyyat nazirlərinin iştirakı ilə qoyulub. 2009-cu ildə dövlət başçılarının iştirakı ilə ilk sammit keçirilib. 2011-ci ildə Cənubi Afrika Respublikası onlara qoşulub.

Hazırda təşkilatın 11 üzvü var: Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası, Misir, İran, Efiopiya, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Argentina.

BRICS ötən müddətdə çoxtərəfli siyasətləri əlaqələndirən geosiyasi bloka, həmçinin dünya əhalisinin təxminən yarısını və qlobal iqtisadiyyatın dörddəbirindən çoxunu təşkil edən nəhəng iqtisadi güc mərkəzinə çevrilib.

Kazan sammiti ərəfəsində bir neçə ölkə, o cümlədən Azərbaycan BRICS formatına üzvlük üçün müraciət edib.

Sammitə ümumilikdə 35 ölkədən və 6 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, o cümlədən 22 dövlət başçısı və BMT-nin baş katibi Antonio Quterreş qatılıblar.

# "İlyas Əfəndiyev ideologiyaya deyil, ədəbiyyata xidmət edib"

əvvəli səh. 1-də

Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov deyib ki, İlyas Əfəndiyev haqqında danışmaq Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, hətta siyasətinin böyük bir dövrü haqqında danışmaq deməkdir: "İlyas Əfəndiyev maraqlı şəxsiyyət olub. İlyas Əfəndiyev ədəbiyyat üçün yaranmışdı. Ədəbiyyata nəsrlə gələn yazıçının əsərlərində milli kolorit, Qarabağ mühiti, etnoqrafiyası mükəmməl şəkildə öz əksini tapıb".

Akademik Muxtar Kazımoğlu bildirib ki, dramaturgiyamızda lirik-psixoloji üslubun inkişafı İlyas Əfəndiyevin dram əsərləri ilə bağlıdır. Onun əsərləri Azərbaycan teatr sənətinin inkişafında mühüm rol oynayıb.

Xalq artisti, rejissor Mərahim Fərzəlibəyov İlyas Əfəndiyev yaradıcılığını zəngin bir ədəbi-mədəni xəzinə kimi səciyyələndirib, "İlyas Əfəndiyev. Biblioqrafiya" kitabının isə bu xəzinənin qızıl açarı olduğunu söyləyib.

Tədbirdə çıxış edən Xalq yazıçısı Elmira Axundova, sənətşünaslıq doktoru, professor Məryəm Əlizadə, Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu, "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarov İlyas Əfəndiyevin zəngin yaradıcılığından geniş söhbət açıblar. Bildirilib ki, ədib təkcə Azərbaycan nəsrində deyil, həm də teatr sənətinin müasir simasının formalaşmasında, eləcə də ölməz səhnə əsərləri ilə bir neçə aktyor və rejissor nəslinin yetişməsində əhəmiyyətli rol oynayıb.

Ədibin oğlu, Xalq yazıçısı Elçin Mədəniyyət Nazirliyinə, Milli Kitabxanaya və çıxışçılara öz dərin minnətdarlığını bildirib. Deyib ki, İlyas Əfəndiyev həmişə oxucuları ilə bir yerdə olub. O, əsərlərinin əksəriyyətini sovet dövründə yazsa da, ideologiyaya deyil, ədəbiyyata xidmət edib.

Sonra tədbir iştirakçıları Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanmış "Xalq yazıçısı İlyas Əfəndiyev" adlı elektron məlumat bazası ilə tanış olublar.



Elektron məlumat bazası "Rəsmi sənədlər", "Həyat və fəaliyyətinin əsas tarixləri", "Görkəmli şəxslər İlyas Əfəndiyev haqqında", "İlyas Əfəndiyev düşüncələrindən sətirlər", "İlyas Əfəndiyev dünya milli və universitet kitabxanalarında", "Əsərləri", "Haqqında", "Fotoqalereya", "Videoqalereya" bölmələrindən ibarətdir.

# "Milli musiqi irsimizin rəqəmsal dövrdə təbliği"

## Milli Kitabxananın direktor müavini beynəlxalq konqresdə təqdimat edib

Oktyabrın 24-də Minsk şəhərində "Kitabxana mədəniyyət fenomeni kimi" adlı XI Beynəlxalq konqres keçirilib. Ənənəvi tədbir bu il Belarus Respublikasının alman-faşist işğalçılarından azad edilməsinin 80 illiyinə həsr edilib.

Tədbirdə Azərbaycan Milli Kitabxanasının elmi işlər və kitabxana-informasiya xidməti üzrə direktor müavini Ədibə İsmayılova da iştirak edib.

Milli Kitabxanadan verilən məlumata görə, Ədibə İsmayılova "Milli musiqi irsimizin rəqəmsal dövrdə təbliği" mövzusunda məruzə və təqdimatla çıxış edib. O, Milli Kitabxananın arxiv fondunda mühafizə olunan milli musiqimizin qiymətli inciləri, unikal "Səsyazıları fondu", Azərbaycan bəstəkarlarının əlyazmalarının "Qızıl fondu", həmçinin milli musiqi irsimizin mühafizəsi və rəqəmsal dövrdə təbliği istiqamətində keçirilən layihələrdən söz açıb.

# Alman tədqiqatçıdan "Bakı memarlıq bələdçisi"




Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycan səfirliyi tərəfindən alman memarlıq mütəxəssisi Hayke Maria Yohenninqin (Heike Maria Johenning) "Bakı memarlıq bələdçisi" kitabının təqdimatı keçirilib.

Mərasimdə çıxış edən səfir Nəsimi Ağayev Şərq ilə Qərbin qovuşuğunda, sivilizasiyaların təmas nöqtəsində yerləşən Bakının coğrafi mövqeyinin onun bənzərsiz memarlıq üslubuna mühüm təsir göstərdiyini vurğulayıb. Diplomat Bakının memarlıq incilərinin yaradılmasına alman memarların da öz töhfələrini verdiklərini xüsusi vurğulayıb. Bu xüsusda 1898-1902-ci illərdə Bakı şəhərinin meri olmuş alman mənşəli memar Nikolaus fon der Nonnenin şəhərin özünəməxsus memarlıq üslubunun formalaşmasında göstərdiyi xidmətlər qeyd edilib.

On il ərzində Bakının memarlıq üslubunu araşdırdığını deyən nəşrin müəllifi Hayke Maria Yohenninq Avropa memarlığının şəhərdəki izləri barədə geniş məruzə edib. Tədqiqatçı XIX əsrin sonu – XX əsrin əvvəllərində neft bumu dövründə sürətlə inkişaf edən Bakıda tikilən gözəl memarlıq inciləri barədə danışıb. Bu dövrdə "Art Nouveau" memarlıq üslubunun Bakı şəhərində yayıldığı vurğulanıb. H.Yohenninq ən müxtəlif memarlıq üslublarını özünəməxsus və ahəngdar şəkildə birləşdirən Bakının nadir gözəlliyi ilə daim fərqləndiyini bildirib.

Berlindəki "DOM" nəşriyyat evi tərəfindən nəfis tərtibatda çap edilən kitabda Bakı şəhərinin memarlığının tarixi, inkişafı, görkəmli memarlıq nümunələri, alman memarlarının töhfələri barədə ətraflı məlumat verilir. Nəşrdə Bakının bənzərsiz memarlıq üslubunun tanınmış nümunələrinin fotoşəkilləri də oxuculara təqdim edilir.

# “Hələ yaşamağa dəyər bir az da...”

## Görkəmli şair Məmməd İsmayılın 85 illiyi qeyd olundu

*“...Gəzmək istəyirəm*
*dünyanı yazda*
*Hardasa, hardasa*
*məni duyan var,*
*Hələ yaşamağa dəyər*
*bir az da”,*

– deyən görkəmli şair, publisist, ədəbiyyatşünas-alim Məmməd İsmayılın (Məmməd Mürşüd oğlu İsmayılov) noyabrın 1-də 85 yaşı tamam olacaq.

Bu münasibətlə oktyabrın 23-də Beynəlxalq Muğam Mərkəzində yubiley tədbiri keçirildi.

Xalq şairi Sabir Rüstəmxanlının aparıcılığı ilə keçən gecədə yubilyar şair də səhnədə yerini almışdı. Sabir Rüstəmxanlı Məmməd İsmayılın ədəbiyyata gəldiyi illəri yada salaraq “altımışıncılar” nəslinin nümayəndəsi kimi onun Azərbaycan poeziyasında məxsusi yeri olduğunu diqqət çatdırdı.

Yubilyarı təbrikə gələnlər çox idi. Şairin söz dünyası haqqında duyğularını bölüşmək istəyənlər sırasında ilk olaraq Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi, yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli səhnəyə çıxdı. O, Məmməd İsmayılın “Gənclik” jurnalını yaratması və özündən sonrakı ədəbi nəslə dəstəyindən söz açdı, AYB-nin fəxri diplomunu şairə təqdim etdi.






Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa Məmməd İsmayılın yüksək bədii təfəkkür sahibi olmaqla yanaşı, ölkəmizdə milli şüurun formalaşması prosesindəki müstəsna rolunu da vurğuladı.

Folklorşünas-alim, akademik Muxtar İmanov Məmməd İsmayılın yaradıcılığı barədə geniş məruzə ilə çıxış etdi, şeirlərinin ideya-bədii məziyyətlərindən danışdı. Bildirdi ki, şair yaşadığı mühitin, ünsiyyətdə olduğu insanların könül dilini mükəmməl bilir və şeirlərini də bu qəlb dilinin ritmi və ahəngi ilə yazır. Onun şeirləri xalq deyimləri ilə zəngindir. Belə deyimləri şair elə məharətlə seçir ki, onlar şeirin həm mənasını, məzmununu dərinləşdirir, həm də onun dilini xalq dilinin ən mükəmməl nümunəsinə çevirir. Mifoloji düşüncədən qaynaqlanan deyimlər də onun poeziyasına əlavə rəng qatır.

Millət vəkili, ədəbiyyatşünas Elnarə Akimova Məmməd İsmayılın yaradıcılıq özünəməxsusluğundan danışdı və Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlunun təbrik məktubunu sənətkara təqdim etdi.

Tədbirdə millət vəkili Aydın Hüseynov, “Ədəbiyyat qəzeti”nin baş redaktoru Azər Turan, yazıçı Şərif Ağayar, şairlər Akif Əhmədgil, Əkbər Qoşalı, Aysel Səfərəliyeva və digərləri çıxış edərək Məmməd İsmayılın yaradıcılığından söz açdılar.

Müğənnilər – Xalq artisti Gülyaz Məmmədova, Rövşən Əziz, Ayşən Mehdiyeva şairin sözlərinə yazılmış mahnıları ifa etdilər. Bədii qiraətçilər – Əməkdar artist Ağalar Bayramov və Xəzər Süleymanlı müəllifin bədii nümunələrini səsləndirdilər.

Gecənin sonunda Məmməd İsmayıl tədbirin təşkilatçılarına və qonaqlara minnətdarlığını bildirdi.

Qeyd edək ki, Məmməd İsmayıl Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olub. 1964-cü ildə Azərbaycan Dövlət Universitetini, 1975-ci ildə Moskvada SSRİ Yazıçılar İttifaqı nəzdindəki ikiillik Ali ədəbiyyat kursunu bitirib. 1966–1973-cü illərdə Azərbaycan Dövlət Radio və Televiziya Komitəsində, 1975–1976-cı illərdə “Ədəbiyyat və incəsənət” qəzetində, 1976–1980-ci illərdə Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında çalışıb. 1980–1983-cü illərdə “Yazıçı” nəşriyyatında şöbə müdiri və baş redaktorun müavini, 1983–1987-ci illərdə “İşıq” nəşriyyatının direktoru, 1988–1992-ci illərdə “Gənclik” (“Molodost”) jurnalının baş redaktoru, 1992–1993-cü illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin sədri olub.

Bədii yaradıcılıqla yanaşı, elmi-tədqiqat işi ilə də məşğul olan Məmməd İsmayıl 1998-ci ildə “Çağdaş Azərbaycan poeziyasında aşıq şeiri” mövzusunda namizədlik (fəlsəfə doktorluğu) dissertasiyası müdafiə edib.

Müxtəlif illərdə “Ana əlləri”, “Dünyaya baxıram”, “Axşamlar, səhərlər”, “Söz vaxtına çəkər”, “Qoymayın dünyanı adiləşməyə”, “Bəxtimə düşən gün”, “Hələ yaşamağa dəyər”, “Dünya bizim evimizdir”, “Aman təklik əlindən” və s. kitabları nəşr olunub.

Şair 1996-cı ildə Türkiyəyə köçüb və Çanaqqala Universitetində pedaqoji fəaliyyət göstərib.

**Lalə Azəri**

*əvvəli səh. 1-də*

# Yaşıl STEAM Azərbaycan Festivalı

## Mədəniyyət Nazirliyinin bədii təhsil ocaqları da festivalda iştirak edir

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi və Rəşid Behbudov adına 2 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri fes-






tivalda süni zəka və incəsənət mövzusunda bilik və bacarıqlarını nümayiş etdirirlər. Hər iki məktəbin şagirdləri ifaçılıq və rənglərlə harmoniya yaratmaq sahəsində süni zəka və yaşıl düşüncə vərdişlərindən faydalanacaqlar.

Festivalın açılış mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, COP29 nümayəndələri, ali təhsil və elm müəssisələrinin rəhbərləri, tanınmış ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında “STEAM Azərbaycan”ın ölkə təhsilində vacib layihələrdən biri olduğunu qeyd edib. STEAM-nin tədrisində əsas məqsədin gələcək nəsli yeni çağırışlara hazırlamaq olduğu vurğulanıb.

BMT-nin İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu, millət vəkili Nigar Arpadarai bildirib ki, COP29 ərəfəsində keçirilən builki STEAM festivalı çərçivəsində əsas diqqətin yaşıl texnologiyalara yönəldilməsi xüsusi əhəmiyyət kəsb edir. Nigar Arpadarai STEAM təhsil metodunun sinergetik potensialı sayəsində iqlim dəyişmələrinin təsirlərini yumşaltmağın mümkünlüyünə də toxunub.

“STEAM Azərbaycan” layihəsinin rəhbəri İqrar Nəzərov builki festival haqqında məlumat verib. Bildirib ki, festivalın final mərhələsinə ümumilikdə 244 komanda üzrə 900-dən çox iştirakçı qatılıb və onlardan 146-sı Böyük Britaniya, Türkiyə, Pakistan, Qazaxıstan, Çexiya, Slovakiya, ABŞ – ümumilikdə 15 ölkəni təmsil edir. Məzmunun hazırlanması və iştirakçıların qiymətləndirilmə prosesində Danimarka, Slovakiya, Kanada və Türkiyə daxil olmaqla 10 ölkədən 17 münsif iştirak edib.

Festival çərçivəsində 9 kateqoriya üzrə yarış və sərgi-yarışlar “Yaşıl təşəbbüslər”, “Yaşıl kodlaşdırma”, “Hidrogen maşınların yarışı”, “Dron texnologiyaları”, “Bizim peykimiz”, “Robotların mübarizəsi”, “Gələcəyin mühəndisləri” və digər bu kimi mövzuları əhatə edir.

İqrar Nəzərov STEAM layihəsinin hazırda ölkə üzrə 398 məktəb və 252 min 711 şagirdi əhatə etdiyini, 20-dən çox STEAM mərkəzinin fəaliyyət göstərdiyini vurğulayıb. Çıxışlardan sonra festival iştirakçılarının hazırlıq mərhələsini əks etdirən video təqdim edilib.

Sonra festivalda iştirak edən yerli və xarici komandaların təqdimatı olub.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov və digər rəsmilər Mədəniyyət Nazirliyinin stendinə, Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbi və Rəşid Behbudov adına 2 nömrəli Uşaq musiqi məktəbinin festivaldakı guşələrinə də baxıblar.

Festivalda COP29 Azərbaycan Əməliyyat Şirkətinin mütəxəssisləri tərəfindən iqlim dəyişmələri və dayanıqlılıq mövzularına həsr olunmuş təlimlər də təşkil olunacaq.

# Musiqişünas-alimin 70 illik yubileyi qeyd olunub

Fəttah Xalıqzadə Azərbaycan musiqişünaslıq elminə mühüm töhfələr verib. Alim əsası dahi Üzeyir Hacıbəyli tərəfindən qoyulan etnomusiqişünaslıq istiqamətində dəyərli tədqiqatlar aparıb.



Bu fikirlər Azərbaycan Bəstəkarlar İttifaqında Fəttah Xalıqzadənin 70 illik yubileyinə həsr olunan elmi-praktik konfransda səslənib.

Bəstəkarlar İttifaqının sədri professor Firəngiz Əlizadə tanınmış alimin yaradıcılığından danışaraq onun fəaliyyətinin musiqi elmi üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Fəttah Xaliqzadənin elmi yaradıcılığı, pedaqoji fəaliyyəti, eləcə də musiqişünas-alimin “Üzeyir Hacıbəyli və xalq musiqisi” kitabı haqqında məruzələr dinlənilib.

Bədii hissədə Üzeyir Hacıbəyli və Niyazinin musiqisindən nümunələr səslənib.

# “Şuşa və ətrafının arxeoloji tədqiqi”

AMEA Arxeologiya və Antropologiya İnstitutu Gənc Alim və Mütəxəssislər Şurasının (GAMŞ) təşəbbüsü ilə “Şuşa və ətrafının arxeoloji tədqiqi” mövzusunda elmi sessiya keçirilib.



Şuşa şəhərinin 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan olunması münasibətilə təşkil edilən sessiyada Şuşanın arxeoloji tədqiqi tarixi, şəhər işğaldan azad olunduqdan sonra institutun apardığı tədqiqat işləri barədə məlumat verilib. Qeyd edilib ki, gənclər elmi tədqiqatları paylaşmağa həvəs göstərməli, bu kimi tədbirlərin aparıcı qüvvəsinə çevrilməlidirlər.

Sessiyada müxtəlif elmi müəssisələrdən olan gənc alim və mütəxəssislər “Şuşa qalalarında beynəlxalq arxeoloji tədqiqatlar – 2024” mövzusunda məruzələrlə çıxış ediblər.

# “Muğanda kino günləri”

## Aksiya İmişli, Beyləqan, Saatlı və Sabirabad rayonlarını əhatə edib



Xəbər verdiyimiz kimi, Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) bölgələrdə film nümayişlərini davam etdirir.

21-24 oktyabr tarixlərində keçirilən “Muğanda kino günləri” adlı budəfəki aksiya İmişli, Beyləqan, Saatlı və Sabirabad rayonlarını əhatə edib.

Filmlərin nümayişində məqsəd son illərdə dövlət sifarişi ilə və müstəqil istehsal olunan Azərbaycan filmlərini yerli tamaşaçılara çatdırmaqdır.

Ekran əsərləri İmişli rayon Heydər Əliyev Mərkəzi, Beyləqan rayon Heydər Əliyev Mərkəzi, Saatlı rayon Mədəniyyət Mərkəzi və Sabirabad rayon Mədəniyyət Mərkəzində nümayiş etdirilib.

Kinosevərlər 4 gün ərzində müasir kinomuzun seçilmiş nümunələrindən “Suğra və oğulları” (rejissor İlqar Nəcəf), “Mən burdayam, İlahi!” (rejissor Qulu Əsgərov) tammetrajlı bədii, “Tənha insanın monoloqu” (Emin Əfəndiyev), “Titrəmə” (Amil Amal), “Qırmızı” (Tahir Tahiroviç) qısametrajlı bədii, “İlkin şəhid”, “Atam, anam, bir də mən” (hər ikisi İntiqam Hacılı) və “Evsiz qalmış ay” (Atanur Nəbiyeva) qısametrajlı sənədli filmlərinə baxmaq imkanı qazanıblar.

Xatırladaq ki, AKİ tərəfindən bundan əvvəl 2022-ci ildə “Cənubda kino günləri” başlığı ilə Lənkəran, Biləsuvar və Lerik rayonlarında, bu ilin iyul ayında isə “Şirvanda kino günləri” başlığı altında Şirvan şəhəri, Biləsuvar, Neftçala, Salyan və Hacıqabul rayonlarında film nümayişləri təşkil edilmişdi.

# “Musiqi kimliyimiz” layihəsində Aşıq Molla Cümə yad olunub

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının “Musiqi kimliyimiz” layihəsinin növbəti buraxılışı Aşıq Molla Cümənin (1854-1920) 170 illiyinə həsr olunub.



Layihənin ilk günü Gəncə şəhər Fikrət Əmirov adına 1 saylı Uşaq musiqi məktəbi, Zərif Qayıbov adına 5 nömrəli Uşaq musiqi məktəbinin müəllim və şagirdləri çıxış ediblər. Onların ifasında “Baş şəşəngi”, “Dost mehriban ya bir ola, ya iki”, “Ay bala gəlin”, “Yaşa, Azərbaycan!”, eləcə də “Paşa köçdü”, “Gödək donu” və “Baş dübeyti” havaları səsləndirilib.

Layihənin ikinci günü Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Urban Mərkəzində konsert proqramı keçirilib. Gəncə şəhər Bülbül adına 3 saylı Uşaq musiqi məktəbi və şəhər Uşaq incəsənət məktəbinin müəllim və şagirdlərinin ifasında aşıq havaları və xalq mahnıları təqdim olunub.

Layihənin bağlanış mərasimində isə Bəxtiyar Qənbəroğlu, Əfqan Məmmədov, Elbrus Hüseynov, Qalib Babaxanov, Saleh Tağıyev, Bəhruz Bağırov, Qənbər Allahverdiyev, Yaşar Məhərrəmov, Firəddin Mehdiyev, Ərəstun Kamalovun ifasında “Şərili”, “Şəqayi gəraylı”, “Təbriz gəraylısı”, “Ovşarı”, “Naxçıvanı”, “Baş Sarıtel”, “Kərəm gözəlləməsi”, “Koroğlu dübeytisi” və “Hüseyni” saz havaları səsləndirilib.

Qeyd edək ki, “Musiqi kimliyimiz” layihəsində bundan əvvəl Aşıq Ələsgər və Aşıq Şəmşir yad olunmuşdu.

# Qazax teatrı Qazaxıstana gedəcək



Oktyabrın 28-dən noyabrın 3-dək Qazaxıstanın paytaxtı Astanada III “Teatral” Beynəlxalq Teatr Festivalı keçiriləcək.

Qazaxıstanın yazıçı-dramaturqu, Dövlət mükafatı laureatı Roza Mukanovanın 60 illik yubileyinə həsr olunan festivalda bir sıra ölkələrdən teatrlar və sənət mütəxəssisləri iştirak edəcəklər.

Festivalda ölkəmizi Mədəniyyət Nazirliyinin dəstəyi ilə Qazax Dövlət Dram Teatrı təmsil edəcək. Yaradıcı heyət yubilyar müəllifin “Bir çətir altında – mən” pyesi əsasında hazırlanan eyniadlı tamaşanı göstərəcək.

İnsan münasibətlərinin ön plana çıxarıldığı psixoloji dramın quruluşçu rejissoru Əməkdar artist Musa Eyyubov, quruluşçu rəssamı Aysan Omarovadır.

# “Tanrı quşu gəlmədi” Bakıya gələcək

Lənkəran Dövlət Dram Teatrı ölkədaxili qastrol proqramına uyğun olaraq, 29-30 oktyabr tarixlərində Bakıda olacaq.

Yaradıcı heyət əvvəlcə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında yeni səhnə əsərinin – “Tanrı quşu gəlmədi” tamaşasının premyerasını keçirəcək. Ertəsi gün isə Lənkəran teatrının repertuarından “Casus” təqdim olunacaq.

Yazıçı-dramaturq Cavid Zeynallının eyniadlı dramı əsasında hazırlanan “Tanrı quşu gəlmədi” tamaşası öz ilkin və həqiqi mahiyyətindən qopan, mənəvi xilasını keçmişdə, uşaqlığında axtaran Süleyman Əfəndiyevin faciəvi taleyindən bəhs edir.

Doğulduğu kənddə onun bütün keçmiş günahlarından xəbərdar sonuncu adam öləndən sonra Süleyman kəndə qayıtmağa qərar verir. Kənddə onu çox şey gözləyir: doğulduğu və indi – ömrünün bu ixtiyar çağında sığınmaq istədiyi ev, doğmalarının xatirəsi, həyatını məhv etdiyi qadının qisası, ondan üz döndərən Tanrı quşu...

Amma Süleymanın oğlu Mustafa onun kəndə qayıtmağının əleyhinədir. Süleyman həyatının acı həqiqətləri ilə üz-üzə qalıb nəhayətdə qovuşmaq istədiyi Tanrı quşunun qurbanına çevrilir. Çünki quş dilini də bilmir. Tanrı quşunu Allahın insana əmanəti olan vicdan hissinin ümumiləşmiş adı da hesab etmək olar.

Psixoloji-dram janrlı səhnə əsərinə teatrın baş rejissoru Anar Babalı quruluş verib.

Quruluşçu rəssam Tərlan Sadıqov, bəstəkar Aydan Əliyevadır. Rolları Xalq artisti Qabil Quliyev, aktyorlar Qızılgül Quliyeva, Saleh Əzimzadə, Gülər Kərimova, Mələykə Cəfərova, Elçin Hacıyev, Əlizamin Abbasov, İmaməli Əskərov və Zeynal Məmmədzadə ifa edirlər.

# Şəhid qəhrəmanların xatirəsi yad edilib

Oktyabrın 21-də Vətən müharibəsi şəhidi Famil Əlizadənin xatirəsi yad olunub. Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Masallı rayon komitəsinin sədri Vəkil İsmailov, Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin rayon üzrə nümayəndəsi Salman Yunusov və Masallı Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Əntiqə Tağıyeva Ərkivan qəsəbəsində şəhidin məzarınız ziyarət ediblər. Ziyarətçilər şəhidin ailəsinə baş çəkib, qayğı və problemlərini öyrəniblər.



Famil Habil oğlu Əlizadə 1999-cu il mayın 3-də Masallının Ərkivan qəsəbəsində anadan olub. Vətən müharibəsində Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndinin işğaldan azad edilməsində şücaət göstərərək şəhidlik zirvəsinə yüksəlib. Oktyabrın 22-də doğma qəsəbədə torpağa tapşırılıb. Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

***



Mil-Muğan RMİ-nin İmişli rayonu üzrə mədəniyyət müəssisələri və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi Elməddin Əhmədzadənin xatirəsinə həsr olunmuş "Torpaq uğrunda ölən varsa..." adlı tədbir keçirilib.

Tədbirin bədii hissəsində mədəniyyət işçilərinin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunub. Şəhidin atası Uğur Əhmədzadə tədbirin təşkilinə görə rayon rəhbərliyinə və mədəniyyət işçilərinə təşəkkür edib.

***



Şəki-Zaqatala RMİ-nin tabeliyində fəaliyyət göstərən Şəki şəhər Narınqala və Səməd Vurğun adına folklor evləri tərəfindən Vətən müharibəsi şəhidləri əsgər Toğrul Nağıyev və baş çavuş Elçin Nadirovun xatirəsi anılıb. Şəhidlərin həyat və döyüş yolundan söz açılıb, xalqımızın belə qəhrəmanlarla hər zaman fəxr edəcəyi bildirilib.

Şəhidlər haqqında filmləri nümayiş olunub.

# Tanınmış aşığa həsr olunan "Dastan axşamı"

İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində Əməkdar mədəniyyət işçisi aşıq Yanvar Bədəlovun (1942–2018) xatirəsinə həsr olunmuş "Dastan axşamı" adlı tədbir keçirilib.



Tədbirdə Dağlıq Şirvan RMİ-nin rəis müavini Əlisultan Sadıxov, rayon İcra Hakimiyyətinin başçısı müavini Sevil Əhmədova, Azərbaycan Aşıqlar Birliyinin (AAB) katibi Musa Nəbioğlu və digər qonaqlar iştirak ediblər.

Musa Nəbioğlu mərhum sənətkarın həyat və yaradıcılığı haqqında danışıb. Bildirib ki, o, "Koroğlu havaları" klassik aşıq havalarının mahir ifaçısı kimi tanınıb.

Aşığın həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş etdirilib.

Bədii hissədə Əməkdar mədəniyyət işçisi xanəndə Sahibə Abdullayeva, aşığın yetirmələrindən Elman Mehdiyev, Qalib Güləliyev və Elçin Məmmədov çıxış ediblər. Onların ifaları tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb.

# Yerlərdə mədəni həyat

Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanasında "Beynəlxalq məktəb kitabxanaları günü" (22 oktyabr) ilə əlaqədar "Gəlin, kitab oxuyaq!" adlı tədbir keçirilib. Bildirilib ki, əlamətdar gün UNESCO-nun təşəbbüsü ilə 1999-cu ildən etibarən qeyd olunur. Sonda "22 oktyabr – Beynəlxalq məktəb kitabxanaları günüdür" adlı sərgiyə baxış olub.





***

Quba Rayon İcra Hakimiyyəti, Azərbaycan Yazıçılar Birliyi və Quba-Xaçmaz RMİ-nin birgə təşkilatçılığı ilə Bəşir Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzində Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadənin 70 illiyinə həsr olunmuş ədəbi məclis keçirilib.





Yubiley tədbirində rayon İcra Hakimiyyətinin məsul şəxsləri, Quba-Xaçmaz RMİ-nin rəisi vəzifəsini icra edən Fərid Musayev, elm, mədəniyyət, incəsənət xadimləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Çıxış edənlər görkəmli ədəbiyyatşünas-alimin yaradıcılığından söz açıblar. Tədbir ədəbi-bədii kompozisiya ilə davam edib.

***

Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzində Xaçmaz Xalq teatrı tərəfindən narkomaniyanın fəsadlarından bəhs edən "Fəlakət konfetləri" tamaşası nümayiş olunub.

Xaçmaz Rayon İcra Hakimiyyəti və Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə gerçəkləşən təqdimatda əsrin bəlasına çevrilmiş narkomaniyanın fəsadlarından, bu qorxulu bəlaya qarşı aparılan mübarizə tədbirlərindən danışılıb.

Müəllifi yerli şair Nəzər Mirzəyev olan səhnə işi maraqla qarşılanıb.

***

Sumqayıt Şəhər Gənclər Kitabxanasında "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar "Təbiət bizim evimizdir" adlı tədbir keçirilib. Nəsrəddin Tusi adına 12 nömrəli tam orta məktəbin və "Dostluq" mədəniyyət evi şagirdlərinin rəsm sərgiləri nümayiş olunub, təbiətə həsr olunmuş şeir qiraət edilib, mahnılar səsləndirilib.

***

Mingəçevir Dövlət Dram Teatrının səhnəsində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Ağ-qara" monopyesi nümayiş etdirilib. Ətraf mühitin çirkləndirilməsi və bunun nəticəsində yaranmış ekoloji problemlərdən bəhs edən tamaşanın ssenari müəllifi və quruluşçu rejissoru Əməkdar artist İntiqam Soltandır.

***





Şirvan Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Məhəmməd Əmin Rəsulzadənin (1884-1955) 140 illiyinə həsr olunan konfrans keçirilib.

Çıxışlarda Rəsulzadənin ictimai-siyasi və elmi fəaliyyətindən danışılıb. Qeyd olunub ki, dahi şəxsiyyətin adı Azərbaycan Xalq Cümhuriyyəti ilə qoşa çəkilir. Rəsulzadəyə həsr olunan film nümayiş etdirilib.

***

Qazax Rayon İcra Hakimiyyəti və Qazax-Tovuz RMİ-nin birgə təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində Aşıqlar Birliyi Qazax-Ağstafa bölməsinin sədri aşıq Camoy Qurbanovun 70 illik yubileyi qeyd olunub.

Çıxışlarda dövlət tərəfindən aşıq sənətinə göstərilən diqqət və qayğıdan bəhs olunub. Tədbir bədii hissə ilə davam etdirilib.

Sonda yubilyar aşıq sənətinə göstərilən diqqət və qayğıya görə tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib.

***

Qazaxda Azərbaycan Yazıçılar Birliyinin üzvü gənc şair Rüfət Axundlunun "Tərk etməz bu sevda məni" adlı şeirlər kitabının təqdimatı keçirilib. Ədəbiyyat Muzeyində keçirilən tədbirdə rayonun icra başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatı Səməd Seyidov, Qazax-Tovuz RMİ-nin rəis əvəzi Nail Məmmədov və başqa çıxış edənlər yeni kitabı münasibətilə şairi təbrik edib, ona yaradıcılıq uğurları arzulayıblar.

***

Masallı rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi Masallı nümayəndəliyinin birgə əməkdaşlığı, Masallı Dövlət Regional Kollecinin dəstəyi ilə "Təqdim edir: gənclik" adlı layihə həyata keçirilir. Layihənin məqsədi gənclərin ekoloji savadlılığının artırılması, ekoloji problemlərə gənclərin yanaşmasının sərgilənməsi, bu sahədə gənclərin rolunun daha da artırılmasından ibarətdir.

***

Astara rayon Heydər Əliyev Mərkəzində Xalq şairi Nəbi Xəzrinin (1924–2007) 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Mərkəzin direktoru Kübra Səmədova şairin zəngin yaradıcılığından söz açıb. Qeyd olunub ki, müəllifin pyesləri də Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulub. Sonra "Nəbi Xəzrinin əsərləri" adlı film nümayiş olunub.

***

Astara rayon Kakalos kənd Mədəniyyət evində "Əvəsor" folklor xalq kollektivinin yaranmasının 60 illiyi münasibətilə tədbir keçirilib. Fərbiyə Şabanovanın təşəbbüsü ilə yaradılmış kollektivin fəaliyyəti, ümumrayon, respublika və beynəlxalq tədbirlərdə çıxışları haqqında məlumat verilib. Milli musiqi və folklor rəqsləri ilə müşayiət olunan tədbirin sonunda kollektivin üzvləri rayon Mədəniyyət Mərkəzinin fəxri fərmanları ilə təltif ediliblər.

**Hazırladı: N.Məmmədli**

# Ağstafada intellektual yarış

Ağstafa rayon ümumtəhsil müəssisələrinin şagirdləri və onların valideynlərinin iştirakı ilə "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 münasibətilə intellektual yarış keçirilib.

Yarış Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi, Ağstafa RİH, Qazax-Tovuz RTİ-nin Ağstafa rayonu üzrə sektoru və "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun birgə təşkilatçılığı ilə gerçəkləşib.

Ağstafa rayonu Alı Mustafayev adına Həsənsu kənd tam orta məktəbində keçirilən tədbirdə iştirakçılar əvvəlcə qoruq ərazisindən aşkarlanmış maddi mədəniyyət nümunələrindən ibarət sərgi ilə tanış olublar.

İştirakçılar "Yaşıl dünya naminə həmrəylik ili", COP29, işğaldan azad olunmuş ərazilərdə bu sahədə aparılan işlər və s. mövzuda sualları cavablandırıblar.



Ağstafa rayon Dağ Kəsəmən kənd 1 nömrəli tam orta məktəbinin "Füzuli" komandası I, Həsənsu kənd tam orta məktəbinin "Xocalı" komandası II, Azər Yusifli adına Böyük Kəsik kənd tam orta məktəbin "Zəngilan" komandası III yerə layiq görülüb.

Qaliblərə sertifikatlar, qoruğun çap məhsullarından ibarət hədiyyə paketləri təqdim olunub.

# Beyləqanda bədii qiraət ustası ilə görüş

Beyləqan rayon Mədəniyyət Mərkəzində rayon İcra Hakimiyyətinin təşəbbüsü və mədəniyyət müəssisələrinin təşkilatçılığı ilə tanınmış bədii qiraətçi, Əməkdar artist Ağalar Bayramovla görüş keçirilib.

İcra başçısı Əziz Əzizov və digər çıxış edənlər Ağalar Bayramovun yaradıcılıq yolundan söz açıblar. Sənətkara İcra Hakimiyyətinin fəxri diplom və xatirə hədiyyələri təqdim olunub.

Ağalar Bayramov görüşün təşkilində əməyi keçən və onun yaradıcılığına yüksək dəyər verənlərə minnətdarlığını bildirib, tanınmış şairlərin şeirlərini söyləyib. Qiraət olunan poeziya nümunələri və musiqi nömrələri tədbirə xüsusi rəng qatıb.

Uğur sorağında

# "İncilər" Naxçıvanda azyaşlılardan ibarət ilk rəqs ansamblıdır



Rəqs bədən dili ilə anladılan bir hekayədir. İnsanın içindəki duyğuların, arzuların ritmlərlə ifadəsidir. Rəqs ansamblı bu məqsədlə bir araya gələn, bir-birini tamamlayan fərdlərdən ibarətdir. Onlar səhnədə parlaq işıqların altında musiqinin ritmi ilə ahəngdar bir şəkildə tamaşaçıların estetik zövqünü oxşayırlar.

Ötən il Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən Uşaq İncəsənət Festivalında (UİF) nailiyyət əldə edən istedadlar arasında "İncilər" rəqs ansamblı da vardı. "Uğur sorağında" rubrikasında bu dəfə oxucularımıza həmin kollektivi tanıdacağıq.

Həmsöhbətimiz ansamblın yaradıcısı Fatimə Kazımovadır. O, Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Musiqi Kollecində xoreoqrafiya ixtisası üzrə təhsil alıb. Hazırda Bakı Xoreoqrafiya Akademiyasında təhsilini (qiyabi) davam etdirir. 2021-ci ildən pedaqoji fəaliyyətlə məşğul olur, Naxçıvan şəhər Uşaq musiqi və incəsənət məktəbində xoreoqrafiya ixtisası üzrə müəllimdir. "İncilər" rəqs ansamblını da 2021-ci ildə yaradıb.

Bu barədə deyir: "Naxçıvan Muxtar Respublikasında azyaşlılardan ibarət rəqs ansamblı yox idi. Düşünürdüm ki, belə bir kollektiv yaradılmalıdır. Rəqs sənətinin inkişafı üçün bu vacibdir. Bu məqsədlə rəqs ansamblı yaratmağa qərar verdim. İstedadlı şagirdlərimizin hər birinin bir inci olduqlarını düşünərək ansamblın adını "İncilər" qoydum. Kollektivimizdə 5-17 yaş arası şagirdlər fəaliyyət göstərir".

Ansambl 2023-cü ildə Naxçıvanda Heydər Əliyevin 100 illiyinə həsr olunmuş müsabiqədə solo və kollektiv nominasiya üzrə I, duet nominasiyası üzrə I və II yerlərə layiq görülüb.

Ötən il isə UİF-də "İncilər" (Nuray Fətullayeva, Öznur Bayramlı, Şənay Bayramlı, Sənay Eylazova, Nuray Mahmudlu, Fatimə İsmayılova, İradə Vəliyeva, Nərgiz Fərəcli, Gülay Əlizadə) milli rəqs ansamblı nominasiyasında 14-17 yaş kateqoriyasında III yeri qazanıb.

Bundan əlavə, ansamblın üzvlərindən Fatimə Allahyarlı solo milli rəqs nominasiyası üzrə 10-13 yaş qrupunda III, Nuray Fətullayeva isə həmin nominasiya üzrə 14-17 yaş kateqoriyasında II yerlərə layiq görülüblər.

"Uşaq İncəsənət Festivalı mən və kollektivimizin ən çox zövq aldığı, təcrübə qazandığı müsabiqə idi. Festivala hazırlaşarkən məqsədimizdə yer tutmaq var idi. Mən şagirdlərimə, onlar da mənə inanırdı. Gərgin məşqlərimiz olurdu. Nəticədə çəkdiyimiz əziyyət dəyərləndirildi və uğur qazandıq", – deyə Fatimə Kazımova bildirir.

O, UİF-dən sonra da kollektivin müxtəlif müsabiqə və tədbirlərdə uğurla iştirak etdiyini söyləyir: "Naxçıvan Dövlət Milli Dram Teatrında muxtar respublikasının 100 illik yubileyinə və 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş sinif konsertimiz oldu. Konsert böyük maraqla qarşılandı. Bu il kollektivimizin təşəbbüsü ilə muxtar respublikada ilk dəfə 29 aprel – Beynəlxalq Rəqs Günü münasibətilə Heydər Əliyev Sarayında 7 kollektivin iştirak ilə tədbir keçirildi. "Naxçıvan istedadları" adlı uşaq incəsənət festivalında "İncilər" rəqs ansamblı solo və kollektiv nominasiyalar üzrə I yeri qazandı. Bunlarla yanaşı, iştirak etdiyimiz dövlət tədbirlərində təşəkkürnamələr və fəxri fərmanlarla təltif olunduq".

Kollektivin gələcək fəaliyyəti haqqında danışan Fatimə xanım "İncilər" rəqs ansamblının beynəlxalq müsabiqələrdə də ölkəmizi uğurla təmsil etmək arzusunu dilə gətirir. O, həmçinin bu sənətin muxtar respublikada inkişafı üçün daha səylə çalışacağını söyləyir.

**Nurəddin**

# Ruhumuzun payız sonatası

## Tofiq Quliyevin əsərlərindən ibarət musiqi axşamı



İnsan heç qəribsəmir. Elə bilir indi uzaq görünən ötən əsrin 50–60-cı illərində yaşayıb, qurub-yaradıb. Amma qəti surətdə qocalıb-qarımayıb. Sadəcə, hansısa zaman dəyişməsində oradan buralara adlayıb. Ya da əksinə, düşünmədən baş götürüb o illərə gedib. Özü də ürəyinin səsinə qulaq asaraq. Həm də "Ürək mahnıları"nın qanadlarında...

Onsuz da "oktyabrın 17-də Heydər Əliyev Sarayında Azərbaycanın görkəmli bəstəkarı, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Quliyevin (1917-2000) əsərlərindən ibarət "Ürək mahnıları" adlı konsert proqramı keçiriləcək" xəbərini alandan bütün ruh hallarımıza uyğun nəğmələrin möcüzəvi yaradıcısı ilə sakral aləmdə təmasa hazır idik. Bir yandan da bu payızın notları...

Adama elə gəlirdi ki, xəfif payız küləyinin ayaqlarımız altına səxavətlə sərdiyi xəzəllərin xışıltısı dilimizdəki Tofiq Quliyev nəğmələrinə "qoşularaq" həzin zümzümə edir.

Həmin axşam əzəmətli sarayın salonuna toplaşan əsasən yaşlı və orta nəsildən ibarət musiqisevərlərin səadəti də bir başqa idi. Onların sırasında mənim kimi 80-ci illər nəslinin nümayəndələri də ara-sıra gözə dəyirdi. Səliqə ilə daranmış saçlar, parlaq ziyafət paltarları, əlvan yaylıqlar, şax köynəklər, ütülü kostyumlar, köhnə tanışlar kimi nəzakətlə bir-birinə baxıb gülümsünən 60-cılar nəsli... Səhnədəki böyük ekranda bu insanları bir araya gətirən təkrarsız Tofiq Quliyevin zala enerji saçan fotosu.

Səhnədə Niyazi adına Dövlət Simfonik Orkestri (dirijor Cavad Tağızadə), Azərbaycan Televiziya və Radiosu Səsyazma evinin musiqi kollektivi (konsertmeyster Fəridə Hüseynova) yerini almışdı.



Aparıcı Rahib Azərinin təqdimatında ötən əsrə qayıtmaq, böyük bəstəkarın yetişdiyi dövrə, ömür yoluna, sənət tarixçəsinə nəzər salmaq başqa bir doğmalıq bəxş etdi. Onun da dediyi kimi, bəstəkar Azərbaycan musiqisində lirik mahnıların ən seçkin nümunələrini yaratdı. Tofiq Quliyevin yaradıcılığı heç bir bəstəkarın üslubuna bənzəmir. Sənətkarın Nizaminin sözlərinə yazdığı "Könlüm" və "Sevgiliмə", Xaqaninin sözlərinə bəstələdiyi "Bəxtəvər oldum" romansları qəlblərə sığal çəkir. "Sənə də qalmaz", "Qəmgin mahnı", "İlk bahar", "Neylim", "Axşam mahnısı", "Bakı gecələri" kimi mahnıları insanın daxili aləmini rəngarəng hisslərə bürüyür. Bu mahnılar musiqi dilinin xəlqiliyi, melodiyalarının zənginliyi və axıcılığı ilə fərqlənir.

Tofiq Quliyevin hər bir mahnısı üçün yaddaqalan, orijinal bir intonasiya xarakterikdir. Sənətkarın mahnı yaradıcılığında müasir musiqi üslubu xalq musiqisi ilə qəribə bir harmoniya yaradır.

Cismani varlıqla yoxluq arasındakı uzun və sıxıcı məsafədə hamı kimi mən də bir daha əmin oldum ki, zaman nə qədər sürətlə axsa da, bizlər ruhumuzu oxşayan anlarla həmyaşıdıq. Lap nəğmələri ilə bütün zamanlara meydan oxuyan Tofiq Quliyev kimi.

Axı böyük bir nəsil onun yaradıcılığından bəhrələnib, musiqi zövqü formalaşıb. Tofiq Quliyev yaradıcılığı təbiəti sevməyi, həyatı sevməyi, gözəlliyin qədirqiymətini bilməyi, musiqinin səviyyəsini düzgün təyin etməyi, Vətənə bağlılığı aşılayıb.

Hər çıxışında Tofiq Quliyevə bir insan kimi də rəğbətini izhar edən aparıcı onun Azərbaycan musiqi mədəniyyətinə bənzərsiz töhfələr verdiyini və məhz bu xidmətinin sənətkarı bütün zamanlarda yaşadacağını dilə gətirdi.

Tofiq Quliyev soraqlı gecə bəstəkarın "Görüş" filmi üçün yazdığı qəlboxşayan valsla başladı. Orkestrin canlı müşayiətində xoreoqraflar Samir Səmədov və Liana Bernadina bizlərə xoş, zövqlü bir neçə dəqiqə hədiyyə etdilər.

Ardınca müasir estrada və vokal ifaçılığı üzrə parlaq simalar Azad Şabanov, Nicat Cəfərzadə, Ayşən Mehdiyeva, "Qaya" ansamblı, Samir Piriyev, Zabitə Alıyeva, Nazim Faytonçu, Anar Şuşalı, Emin İsmayılov, Almaxanım Əhmədli, Zakir Əliyev, Rəvanə Qurbanova, Samir Cəfərov, Cavan Zeynallı, Mirələm Mirələmov, Taleh Yahyayev və başqaları bəstəkarın dillər əzbəri olan mahnılarını ifa etdilər.

Əsas etibarilə kinofilmlərə yazılsa da, film musiqisi olmaqdan çıxıb milli mahnı janrının incilərinə çevrilən "Qızıl üzük", "Məhəbbət çırağı", "Sənə də qalmaz", "Yolayrıcında", "Sevincim Bakı", "Bakı əziz şəhər", "Sən mənimsən, mən sənin", "İlk bahar", "Tez gəl", "Darıxma", "Pəncərəmə qondu çiçək", "Gül, oğlum", "Gəlmədi", "Qəmgin mahnı", "Nar gülüm", "Axşam" kimi fərqli mövzu və ritmli nəğmələr ruhumuza sığal çəkdi.

Sonda "Qayınana" filmindən "Biz mehriban ailəyik" nəğməsi ilə solistlər səhnədə, tamaşaçılar da zalda sevimli bəstəkarlarını alqışladılar, ona təşəkkür etdilər.

Unudulmaz musiqili axşam bəstəkarın illər öncə lentə alınmış "Mənim mahnılarıma qulaq asdığınız üçün sizə təşəkkür edirəm" videomesajı ilə bitdi və növbəti görüşə qədər bizləri ovsunlamaqda davam edəcəyi təəssüratında bütünləşməyimizə "izn" verdi...

**Həmidə**

# Üç yubilyar "Musiqi aləmində"

Bu il Azərbaycan musiqisinin üç görkəmli sənətkarı, Xalq artistləri – bəstəkarlar Şəfiqə Axundova (1924–2013) və Süleyman Ələsgərov (1924–2000), tarzən Əhsən Dadaşovun (1924–1976) 100 illik yubileyləridir.



Oktyabrın 22-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində "İrsimizin Tədqiqi və Təbliği" İctimai Birliyinin təşkilatçılığı ilə bu yubileylərə həsr olunan "Musiqi aləmində" jurnalının yeni sayının təqdimatı keçirilib.

Muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova giriş sözündə hər üç sənətkarın milli musiqi sənəti tariximizdə məxsusi iz qoyduğunu vurğulayıb.

Sonra tədbirin aparıcısı "Musiqi aləmində" jurnalının təsisçisi və redaktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı nəşrin yubilyarlara həsr olunan nömrəsi, dərc olunan materiallar haqqında məlumat verib.

Tədbirdə Əhsən Dadaşovun qızı, pianoçu Xanım Məhərrəmova, musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Mehparə Rzayeva, Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nuridə İsmayılzadə, S.Ələsgərov adına 1 nömrəli Uşaq incəsənət Məktəbinin direktoru Vaqif Abbasov və digər çıxış edənlər Şəfiqə Axundova, Süleyman Ələsgərov və Əhsən Dadaşovun yaradıcılıq yolu, musiqi mədəniyyətimizin inkişafında, zənginləşməsində əvəzsiz xidmətləri haqqında danışıblar.

Çıxışlar muzeyin arxiv materialları əsasında görkəmli sənətkarlar haqqında hazırlanmış slayd-şou ilə müşayiət olunub.

Bədii hissədə Xalq artisti, müğənni Gülyaz Məmmədova, Əməkdar artist Fəridə Hüseynova (fortepiano), Sunay Hacıyeva (vokal), Əşrəf Bünyadzadə (vokal), Mirnofəl Həsənov (tar), S.Ələsgərov adına 1 nömrəli Uşaq incəsənət məktəbinin müəllim və şagirdləri: Qurban Nəsirli (violin), Aytən Cavadova, Tünzalə Qəhramanova (hər ikisi fortepiano), Əli Sərkərli (qarmon) və Mollağa Əliyevin (nağara) ifalarında Şəfiqə Axundovanın, Süleyman Ələsgərovun əsərlərindən ibarət musiqi proqramı təqdim olunub.

# Tarixi-mədəni irsin mühafizəsində ekoloji mühitin qorunması

## Muzey və mərkəzlərin əməkdaşları üçün treninq

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin birgə təşkilatçılığı ilə "Tarixi və mədəni irsin mühafizəsində ekoloji mühitin qorunması" mövzusunda treninq keçirilib.



21-23 oktyabr tarixlərini əhatə edən treninq bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) və "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə təşkil olunub. Treninqdə baş idarənin tabeliyində olan Heydər Əliyev mərkəzlərinin və muzeylərin baş fond mühafizəçiləri və elmi işçilər iştirak ediblər.

Tədbirlər 21 və 22 oktyabr tarixlərində Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında, oktyabrın 23-də isə Nəriman Nərimanovun Xatirə Muzeyində gerçəkləşib.

Treninqdə "Ekoloji dəyişikliklərin muzey mühitinə təsiri", "Muzey uçot sənədlərinin normativ tərtibatı", "Müasir muzeylərdə ekoloji problemlərin araşdırılması", "Keramika nümunələrinin mühafizə problemləri" və digər mövzularda müzakirələr aparılıb.

# Bakı Caz Festivalında Almaniya-Norveç triosunun konserti

Oktyabrın 17-dən davam edən 19-cu Bakı Caz Festivalının iştirakçıları arasında almaniyalı və norveçli musiqiçilərdən ibarət "Simin Tander Trio"su da var.

Qrup oktyabrın 22-də Beynəlxalq Muğam Mərkəzinin (BMM) səhnəsində çıxış edib.

Bakı Caz Festivalına ilk dəfə qatılan trionun (Simin Tander – vokal, Olav Torget – gitara, Jonas Torget – truba) ifasında caz kompozisiyaları maraqla qarşılanıb.

Həmin gün BMM-in foyesində rəssam Cəmilə Hacı-Səmədzadənin "İpək üzərində caz" adlı qurama sərgisi də nümayiş etdirilib.

Tamaşaçılar konsertdən əvvəl sərgiyə baxıblar.




Cəmilə Hacı-Səmədzadə əl işləri barədə deyib: "Mən bu işə çoxdan başlamışam, bir neçə aydır ki, xüsusi olaraq caz festivalı üçün əsərlər hazırlamışam. Musiqini çox sevirəm. Caz həmişə yaradıcı peşə sahiblərini ruhlandırır. Panelimdə caz triosunu təsvir etməklə qərarına gəldim. Caz təkcə musiqi deyil, həm də azadlıq sevgisidir. Material seçimində ipəyi seçməyim əbəs yerə deyildi. Caz bizim bəşəri musiqi ruhumuzun cərəyanıdır. İpək də axır. Onlar birlikdə çox ahəngdar görünür!".

"Simin Tander Trio"nun rəhbəri Simin Tander "ECM Records"da albomları yazılan Əfqanıstan əsilli alman vokalistidir. O, Avropa cazında yeni səsi təmsil edir və alman cazının yüksələn ulduzu hesab olunur. Vokalçı atasının danışdığı puştu dilində də əsərlər ifa edir.

Almaniyalı sənətçi festivalda iştirakla bağlı təəssüratını belə ifadə edib: "Bu, mənim Azərbaycana ikinci səfərimdir. İlk dəfə iki il yarım əvvəl Rain Sultanovun dəvəti ilə burada çıxış etmişəm. Buraya yenidən qayıtdığım üçün çox şadam. Bakını çox bəyənirəm. Bakı Caz Festivalında ilk dəfə iştirak edirəm. Dəvətə görə Rain Sultanova çox minnətdaram. Bu, gözəl festivaldır, çox yaxşı ab-hava, əla komanda və mükəmməl təşkilatçılıq var. Ötən səfərimdə müasir Azərbaycan musiqisini dinlədim. Avropada da ənənəvi Azərbaycan musiqisini dinləmişəm. Azərbaycanlılar əla musiqiçilərdir. Çox gözəldir ki, belə zəngin mədəniyyətə və yaxşı qorunan ənənələrə malik bir ölkədə müasir musiqinin təqdim olunduğu Bakı Caz Festivalı kimi festivallar keçirilir".

Konsertin sonunda vokalist Azərbaycan dilində "Ay Laçın" mahnısını ifa edib.

Qeyd edək ki, 19-cu Bakı Caz Festivalına 11 ölkədən olan ifaçılar qatılıb. Festival oktyabrın 27-də başa çatacaq.

# Bir gecədə dörd film





Azərbaycan Kinematoqrafçılar İttifaqının ənənəyə çevirdiyi film nümayişləri yenidən davam edir. İttifaq bu dəfə (22 oktyabr) kinoseverləri "Nizami" Kino Mərkəzində "Yeni nəsil, yeni nəfəs, yeni nəzər" adlı kino gecəsində bir araya gətirdi.

Gənc və perspektivli dörd rejissor qısametrajlı bədii filmlərini tamaşaçı müzakirəsinə çıxarmışdılar. Bunlar Azər Quliyevin "İkinci planetin qırmızı rəngi", Daniel Quliyevin "Uzaq", Teymur Qəmbərovun "İki gün", Novruz Hikmətin "Burada hələlik sakitlikdir" filmləri idi.

Kinotənqidçi Sevda Sultanovanın moderatorluğu ilə keçən tədbirdə nümayişlərin ardınca hər film ətrafında müzakirə aparıldı.

Filmlərin yaradıcı heyətləri çəkiliş prosesi, filmlərin ideya və mövzuları barədə tamaşaçılara məlumat verdilər, onları maraqlandıran sualları cavablandırdılar.

Onu da qeyd edim ki, Azər Quliyev və Teymur Qəmbərovun filmləri Mədəniyyət Nazirliyinin 44 günlük Vətən müharibəsi ilə bağlı həyata keçirdiyi "Böyük Qayıdış" layihəsinin qalib işləridir.

"İkinci planetin qırmızı rəngi" filmi döyüş əməliyyatlarını təsvir edir. Biz maddi sıxıntılar içində olan və bu vəziyyətdən də qurtulmaq üçün müharibəyə gedən Musa ilə tanış oluruq. Onun keçmişi və gələcəyi… Sözsüz ki, arzuları var. Amma o, şəhid olur və biz bir gəncin müharibədən öncəki daxili mübarizəsi, sosial sıxıntıları və sonuncu monoloqu – ölüm ilə "qələbə"sini görürük...

"Burada hələlik sakitlikdir" filmi isə gənc cütlüyün müharibəyə münasibəti fonunda savaşın dəhşətlərini göstərir. Onlar şəhərdə sərhədə yaxın yerdə hotel otağında gecələyir və bu zaman müharibə haqqında fikirlərini bölüşürlər. Təbii ki, fikir ayrılıqları, mübahisələr, bəşəri mövzular az qala savaşın bir addımlığında qalan iki insanın düşüncələrinə hakimlik edir.



"İki gün" filmi Bakıda yaşayan kiçik bir ailənin həyatının iki gününü göstərir. Atasının qəfil itməsi və ətrafda baş verən hadisələr fonunda 22 yaşlı Fira bu vəziyyətdən çıxmağa və anasına kömək etməyə çalışır. Maraqlıdır ki, biz sona qədər Firanın atasının harada olmasını bilmirik. Sözsüz ki, hansısa cinayətə qurban gedə, yaxud da ailə münaqişəsinin həllini qaçıb yoxa çıxmaqda da görə bilərdi. Bütün hallarda biz bir ailənin timsalında müharibə ilə bağlı məqamları televiziyadakı xəbərlərdən (fraqmental) görürük. Yəni ailənin müharibəyə birbaşa dəxli yoxdur.



Dördlükdən ən diqqətçəkən iş "Uzaq" filmi oldu. Daniel Quliyev bu qısametrajlı işində, əslində, bir-birinə doğma insanların – iki qardaşın soyuqluğunu, etinasızlığını göstərməyə çalışır.

Elnur (Murad Şükürlü) Bakıda tək yaşayır, müalicə alır. Şəhərə iş dalınca gələn qardaşı (Nurlan Rüstəmov) onun yanında məskunlaşır. Onunla müqayisədə böyük qardaşı tamam fərqli subyektdir. Bu fərqli xarakterli insanlar bir yerdə yaşamağa başlayır.

Bu qardaşlar arasındakı soyuqluq, fərqlilik, bütün hallarda iki doğma insanın yadlaşma səbəbləri tamaşaçını nigaranlıqda saxlasa da, sonda onların atası həm də bir körpü rolunu oynayır.

Filmin mövzusunun mənəvi-psixoloji baxımdan aydın işlənməsi yaxşı təəssürat yaradır.

"London Film School" yetirməsi olaraq bundan əvvəl operator kimi bir neçə filmini maraqla izlədiyim D.Quliyevin tammetrajlı film rejissoru kimi də özünü sınayacağına inanmaq olar. Bu filmin mükəmməl operator işində və rəng həllində Orxan Abbasovun da əməyi böyükdür.

Sonda onu da bildirim ki, AKİ-nin nümayiş silsiləsi davam edəcək və hər dəfə müxtəlif mövzular əhatə olunacaq.

**H.Nizamiqızı**

# Cümhuriyyət dövrü “Azərbaycan”ının XI cildi çap olunub

## Qəzetin 1919-cu ilin avqustunda çıxan iki nömrəsi tapılmayıb




ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Cümhuriyyət dövrü “Azərbaycan” qəzetinin (1918–1920) tam külliyyatının nəşri davam etdirilir.

20 cilddə nəzərdə tutulan toplunun XI cildi işıq üzü görüb. Bu cild qəzetin 1919-cu ilin avqust ayını (240–264-cü nömrələr) əhatə edir.

Külliyyatın bu cildində 1919-cu ilin avqust ayında Cümhuriyyət hökumətinin həyata keçirdiyi işlər, parlamentin iclaslarının stenoqramları, habelə ölkəmizdə və dünyada baş verən hadisələr, Azərbaycanın mədəni-maarif həyatı ilə bağlı yenilikləri əks etdirən informasiyalar, məqalələr yer alıb.

Bu cilddə verilmiş Cümhuriyyət hökuməti tərəfindən Naxçıvana nümayəndə göndərilmiş Mirabbas Mirbağırzadənin Bakıya qayıtdıqdan sonra Baş nazir Fətəli xan Xoyskiyə təqdim etdiyi bəyanat xüsusilə maraq doğurur. Bəyanatda mənfur ermənilərin Naxçıvan və ətraf ərazilərə sahiblənmək istəkləri, mərkəzi hökumətin bu bölgəyə nəzarətinə maneçilik törətməsi ilə bağlı məsələlər diqqətə çatdırılır. Bəyanatdan eyni zamanda həmin dövrdə Naxçıvanda müttəfiq qüvvələrin komandanı, general Tomsonun erməni millətçilərinə göstərdiyi hər cür dəstək və bölgədəki hegemon davranışları da aydın olur.

Külliyyatın bu cildində verilən xüsusi qeyddə bildirilir ki, qəzetin 9 avqust 1919-cu il tarixli 246-cı və 18 avqust 1919-cu il tarixli 254-cü nömrələrini tapmaq mümkün olmayıb. Nəşr layihəsi başa çatmadan bu nömrələr əldə edilərsə, transliterasiyası son cilddə veriləcək.

Xatırladaq ki, “Azərbaycan” qəzetinin tam külliyyatının I cildi 1918-ci ilin sentyabr-oktyabr, II cild həmin ilin noyabr, III cild 1918-ci ilin dekabr, IV cild 1919-cu ilin yanvar, V cildi həmin ilin fevral, VI cild mart, VII aprel, VIII cild may, IX cild iyun, X cild iyul aylarını əhatə edib.

Qəzetin əski əlifbada (ərəb qrafikalı Azərbaycan əlifbası) olan mətnləri filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli və filoloq, tərcüməçi Azad Ağaoğlu tərəfindən transliterasiya olunub. Nəşrin elmi redaktoru akademik Teymur Kərimlidir.

# Gələcək üçün dayanıqlı nəqliyyat

## ADY ilk “Dayanıqlılıq hesabatı”nı təqdim edib

Bu gün dünyada qlobal iqlim dəyişikliyinin doğurduğu fəsadlar və ətraf mühit problemləri kontekstində qarşıda duran başlıca məsələlərdən biri atmosferə karbon qazının buraxılmasının (emissiya) azaldılması (dekarbonizasiya) ilə bağlıdır. Noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası – COP29-da müzakirələrin mühüm istiqaməti bu barədə olacaq. Bununla bağlı nəqliyyat sahəsində dekarbonizasiya hədəfləri də ayrıca önəm kəsb edir. Nəqliyyat növləri arasında bu xüsusda ən qabaqcıl mövqedə dəmir yolu nəqliyyatıdır.

Bu barədə oktyabrın 23-də “Azərbaycan Dəmir Yolları” QSC-nin təşkil etdiyi “Gələcək üçün dayanıqlı nəqliyyat” mövzulu tədbirdəki çıxışlarda söhbət açılıb.

Tədbir “Azərbaycan Dəmir Yolları” QSC-nin ətraf mühit, sosial məsuliyyət və idarəçilik sahəsində dayanıqlı nailiyyətlərə dair ilk hesabatının təqdimatına həsr olunub.

2023-cü ili əhatə edən hesabatda Azərbaycanda dayanıqlı nəqliyyatda, xüsusilə dəmir yollarında yaşıl innovasiyalar və qabaqcıl rəqəmsal həllərin tətbiqi ilə dekarbonizasiya hədəflərinə çatmaq üçün görülən işlər, bu istiqamətdə atılacaq addımlardan ətraflı bəhs olunur.



Tədbirdə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov rəqəmsal innovasiya sahəsində beynəlxalq əməkdaşlıq və dayanıqlı nəqliyyatın inkişafı üçün Azərbaycanın strateji baxışının əsas məqamlarını diqqətə çatdırıb. Dünyada olduğu kimi, ölkəmizdə də elektriklə işləyən nəqliyyat vasitələrinin sayının artdığını bildirən nazir müavini qeyd edib ki, hazırda ölkə üzrə 184 enerji doldurma məntəqəsi fəaliyyət göstərir və bu say artırılacaq.

Energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov və Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov qlobal iqlim məqsədləri və dekarbonizasiya hədəflərinin yerinə yetirilməsində nəqliyyatın önəmi, bu sahədə beynəlxalq təcrübələr və 2030-cu ilədək Milli Prioritetlər, həmçinin Azərbaycanın yaşıl innovasiya sektorunda artan rolu haqqında iştirakçılara ətraflı məlumat veriblər.

Elnur Soltanov onu da diqqətə çatdırıb ki, COP29-a ev sahibliyi edəcək Azərbaycan tərəfindən “milli töhfələr sənədi” hazırlanır və sənəddə öhdəlikləri və iqlim fəaliyyət planları və öhdəlikləri ilə bağlı mühüm hədəflər əksini tapacaq.

Qeyd olunub ki, Azərbaycanda karbon emissiyalarının təqribən 15 faizi nəqliyyatla bağlıdır ki, burada da ən göstərici (1 faiz) dəmir yollarının payına düşür. Başqa sözlə, dəmir yolları ətraf mühit üçün ən təmiz nəqliyyat növüdür.

Tədbirdə çıxış edən ADY sədri Rövşən Rüstəmov dayanıqlı nəqliyyatın qurulmasında dəmir yollarının roluna toxunaraq bildirib ki, dəmir yolu dayanıqlığının birinci və ən mühüm aspekti emissiyaların azaldılması və enerji səmərəliliyidir. Dəmir yolu nəqliyyatı üzrə qlobal karbon emissiyasının ən az səviyyədə olması bizim üçün həm də bir məsuliyyətdir: “Məqsədimiz karbon emissiyalarından tam azad, yəni karbon neytral dəmir yolu nəqliyyat sistemini qurmaqdır”.

R.Rüstəmov diqqətə çatdırıb ki, 2023-cü ildə sərnişinlərin 100 faizinin, yüklərin isə 80 faizinin daşınması elektrik enerjisi hesabına həyata keçirilib.

Tədbirdə ADY-nin tərəfdaşlıq etdiyi Asiya İnkişaf Bankının nəqliyyat direktoru Ceyms Leder də çıxış edib. O, qlobal miqyasda dəmir yolu sistemlərinin dekarbonizasiyası istiqamətində görülən təşəbbüslərdən danışıb, ADY-də onun reallaşdırılmasının gətirəcəyi faydaları qeyd edib.

Çıxışların ardınca ADY-nin ilk “Dayanıqlılıq hesabatı” ilə bağlı qısa film-təqdimat olub.

Daha sonra ADY sədri Rövşən Rüstəmov və Asiya İnkişaf Bankının nəqliyyat direktoru Ceyms Leder tərəfindən iki qurum arasında dəmir yollarında dekarbonizasiya sahəsində əməkdaşlığa dair missiya sənədi imzalanıb.

# Təbiət və xalça

## Hər bir element estetik xarakterlə yanaşı, rəmzi mənalar da daşıyır



Məlum olduğu kimi, ölkəmiz 11-22 noyabr tarixlərində BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək. Qlobal əhəmiyyətli bu mötəbər tədbir çərçivəsində ətraf mühit amillərinin mədəniyyətə təsiri kimi məsələlərə həsr olunan tədbirlər keçiriləcək, təqdimatlar olacaq.

Azərbaycan Milli Xalça Muzeyində bu münasibətlə “İqlimlər və ilmələr” adlı beynəlxalq sərgi də təşkil ediləcək. Biz də bu sərginin adından yola çıxaraq xalçalarımızda təbiət mövzusuna nəzər saldıq.

Əsrlərdir insanlar təbiətdə gördüklərini müxtəlif sənət sahələrində əks etdirirlər. Toxucularsa ilmələrin köməyi ilə xalçalarda təbiət təsvirlərinə yer verirlər. Rəngli ilmələr təkrarlanaraq naxış, naxışların ritmi isə ornament yaradır. Təbiətin müxtəlifliyi kimi xalçaların da naxışları müxtəlif olur. Ölkəmizin əlverişli iqlim şəraiti, füsunkar təbiəti burada qədim xalq sənəti olan xalçaçılığın yaranmasında və inkişafında mühüm rol oynayıb. Azərbaycanın zəngin naxışlı, orijinal kompozisiyalı, ekoloji təmiz, rəngarəng xalçaları onun əsrarəngiz təbiətinin bütün gözəlliklərini özündə əks etdirir.

Xalçalarımızın əsas mənbəyi olan yun sapların boyanması üçün müxtəlif bölgələrdə bitən gül-çiçəkdən, ağac qabıqlarından, bitki köklərindən peşəkar boyaçılar təbii rənglər almışlar ki, bu da uzun illər rəngini, əlvanlığını, parlaqlığını itirməyən xalça nümunələrinin yaranmasına səbəb olub. Xalçaçılığın inkişafı və yayılması əhalinin məişət və estetikası ilə bağlı olduğu qədər də onun təbiəti, mədəni müxtəlifliyi və dünyagörüşünü xarakterizə edib.

Azərbaycan xalçalarında ölkəmizin rəngarəng təbiətinin bütün gözəlliyi – dənizlə səmanın maviliyi, meşələrin yaşıllığı, dağların bəyaz zirvələri və əlvan yamacları əks olunub. Xalçaya nəzər saldığımızda, sözsüz ki, ilk növbədə, onun rəngləri diqqəti çəkir. Eyni zaman rənglər ideyanın çatdırılmasına da xidmət edir. Məsələn, qırmızı, göy və şəkəri rənglər alovun, suyun və torpağın rəmzidir. Azərbaycan Milli Xalça Muzeyinin əməkdaşı Ülkər Rəhimzadə bu mövzuda fikirlərini belə qeyd edir: “Xalça məktəblərinə bir-bir səyahət etsək görərik ki, naxışlarla yanaşı, rəng çalarları da dəyişir. Azərbaycanın şimal-şərq zonalarını əhatə edən Quba qrupu xalçaları xoş rəng ahəngi ilə seçilir. Sanki qar dənələri yerə düşüb ətrafı ağappaq örtüyə bürüyəndən sonra əriyib və torpaqda ilk cücərtilər üzə çıxıb. Bu qəbildən xalçalar evlərdə xoş ab-hava yaradır, sanki qəlbimizi isindirir. Bu hərarət qırmızı, göy, qəhvəyi və s. rənglərlə ifadə olunur. Şirvan xalçalarında nar və sumağın qırmızı dənələri, sünbüllərin qızılı-sarısı, yaşıl məxmər çəmənlər əksini tapıb. Bakı xalçalarında dənizin mavi ənginliyi, atəşin qırmızı rəngi, qumsallıqların qızılı rəngləri ecazkar bir şəkildə qovuşub. Böyük bir bağı xatırladan Qarabağ xalçaları həyat eşqi və parlaq rəng ahəngi ilə seçilir. Daha çox qızılı-sarı, al-qırmızı, palıdı, yaşıl, narıncı və çəhrayı rənglər işlədilir. İslamdan öncə türk xalqları arasında yaşıl təbiətin (çəmənlik, meşə, ağac və s.) rəngi kimi qəbul edilirdi. Necə ki, göy rəngin qaynağı səmadır, eləcə də yaşıl rəngin qaynağı meşə və ağaclardır. Təbiəti əks etdirən ağac, “həyat ağacı” kimi motivlər də yaşıl rənglə əlaqədardır”.





Xalçalarda təbiət mövzusu təkcə rəngarənglik, göz oxşamaq üçün deyil, eyni zamanda insanların sağlamlığına, əhvali-ruhiyyəsinə də təsir edir. Məsələn, yaşıl rəng sağlamlıq, göy rəng isə səma cisimlərinə inam və sitayişlə bağlıdır. Göy rəngin çalarları da müxtəlif təbiət hadisələrini işarə verir. Mavi rəngli naxışlar səma kimi genişliyi və sonsuzluğu, tünd-göy isə dənizlərin dərinliyini ifadə edir. Bu fikirləri ifadə etmək üçün xalçalarımızda, xüsusən Bakı məktəbində (“Zili”, “Xilə əfşan”, “Xilə buta”) Gəncə, Qazax məktəbində (“Samux”, “Faxralı”, “Şıxlı”), Qarabağ (“Qasımuşağı”, “Malıbəyli”) mavi və göy rəngin yanaşı işlədildiyini görə bilərik. Bütün dünyada məşhur olan, xalçaçılıq sənətinin şah əsərlərindən sayılan Təbriz məktəbinin “Şeyx Səfi” xalçasının ara sahəsi sürməyi rəngdədir. Bununla yanaşı, xalçada göy rəngin müxtəlif çalarları da işlənib. Ülkər Rəhimzadə bildirir ki, xalının mərkəzində yerləşən qönçə günəşi, ətrafında yaşıl, qırmızı, sarı rəngli kiçik qübbələr isə onun şüalarını əks etdirir. Ətrafdakı saysız-hesabsız əlvan naxışlar kainatdakı ulduzların rəmzidir. Xalçada kainat tünd-göy, sürməyi rəngdə verilib. Sarı rəng bütün dünyada günəşin rəngi və rəmzi kimi qəbul olunur. Eyni zamanda qədim türk xalqlarında dünyanın mərkəzini və dörd ünsürdən biri – havanın rəmzi sayılır (torpaq-yaşıl, hava-sarı, od-qırmızı, su-mavi).

Xalçaçılıqda sarı rəng günəşin haləsi kimi xalçalarda verilir və istilik, hərarət yayır. Sarı rəng bəzən quraqlığın, qıtlığın, xəstəliyin, mövsümlərdən payızın da mücərrəd ifadəsidir.

Azərbaycan xalçaları istehsal olunduğu yerin bədii ənənəsindən, xammalından (yun, ipək, pambıq və s.) asılı olaraq müxtəlif kompozisiyalara, bəzəklərə malikdir. Bədii xüsusiyyət və məzmun toxunan xalçanın rəsmində, ornamentində və rəngində öz əksini tapır. Xalçalarımızın bədii xüsusiyyəti və məzmunu əsasən onları bəzəyən ornamentlərdən asılıdır. Çünki ornament tətbiq olunduğu sənət nümunəsini bəzəməklə bərabər, onun məzmununu da üzə çıxarır.

Araşdırmalar göstərir ki, xalça üzərindəki bu və ya digər təsviri elementlər təkcə estetik xarakter daşımayıb, eyni zamanda onların hər biri xüsusi rəmzi mənalar da kəsb edir. Bu mənada, heyvan elementləri qoç, qoyun təsvirlərini qeyd edə bilərik. Azərbaycan xalqının mənəvi dəyərlər sisteminin ayrılmaz bir parçasına çevrilmiş qoç inancı təsadüfən yaranmayıb. Toxuculuğun, o cümlədən xalçaçılığın əsas xammallarından birini məhz qoyun yunu təşkil edir. Qədim sənətkarlar toxuculuq üçün yararlı, keyfiyyətli yuna malik qoyun cinslərinin yetişdirilməsində həmişə maraqlı olublar. Burada, ilk növbədə, təbii-coğrafi şərait də mühüm rol oynayıb. Xalçalarımızdakı qoç elementləri dəyanəti və qəhrəmanlığı rəmzləşdirir. Təbiət motivləri elə xalçanın mənbəyi, bütövlükdə xalçanın özü deməkdir. Çünki ilk ilməsindən son ilməsinə qədər xalça sanki bir təbiət möcüzəsidir. Bu baxımdan, müxtəlif mövzularda toxunan milli xalçalarımız elə Azərbaycan təbiətinin bir parçası, vətənin sərvətidir.

**Lalə Azəri**

**Pressfakt**

Bu il Azərbaycan ədəbiyyat və teatr tarixinin görkəmli siması, böyük dramaturq, istedadlı şair, yazıçı-publisist Cəfər Cabbarlının (1899–1934) anadan olmasının 125 illik yubileyidir. Cəfər Cabbarlının zəngin yaradıcılığı hələ sağlığında yüksək qiymət almışdı. Vəfatından sonra isə yubileyləri, xüsusilə sovet dövrünün ideoloji ədəbiyyat meyarları kontekstində geniş şəkildə qeyd olunub. 1969-cu ildə ədibin 70 illiyi Sovet İttifaqının paytaxtında təntənə ilə keçirilmişdi.

Mətbuat xronikasından növbəti seçmələrimiz bu barədədir. “Ədəbiyyat və incəsənət” qəzetinin səhifələrində 55 il əvvələ qayıdaq...

# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (27)

### Xalqlar dostluğunun alovlu tərənnümçüsü

*İttifaqlar evinin Sütunlu salonunda C.Cabbarlının xatirə gecəsi*

Alovlu beynəlmiləlçi, sovet adamlarının dostluğunu və qardaşlığını ilhamla tərənnüm edən görkəmli Azərbaycan yazıçısı Cəfər Cabbarlı bütün sovet xalqlarının hörmət və məhəbbətini qazanmışdır. Azərbaycan sovet dramaturgiyasının banisi C.Cabbarlının anadan olmasının 70 illiyinə həsr edilmiş şənliklər Vətənimizin qırmızı ulduzlu paytaxtı Moskvada təntənəli gecə ilə başa çatmışdır.

İttifaqlar evinin ağ mərmərli Sütunlu salonu bayramsayağı bəzədilmişdi. Səhnənin dərinliyində C.Cabbarlının böyük portreti görünürdü.

SSRİ Yazıçılar İttifaqı idarə heyətinin katibi Anatoli Sofronov gecəni açaraq dedi: hər şey vaxtla ölçülür... Coşqun, ehtiraslı ürəyə malik olan, yorulmaq nə olduğunu bilməyən, xalqının gözəl sifətlərini özündə əks etdirən Cəfər Cabbarlı az yaşadı... Onun yaradıcılıq həyatının hər bir ili Azərbaycan xalqına, Vətənimizin bütün xalqlarına ədəbiyyat inciləri bəxş edirdi. Gözəl dramaturq və yazıçı, Azərbaycan ədəbiyyatının klassiki Cəfər Cabbarlı qardaşlığımızın təməlini qoyanlardan biridir. Ona əbədi eşq olsun!

Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin birinci katibi, Xalq yazıçısı Mirzə İbrahimov Cəfər Cabbarlı haqqında söz söylədi. O dedi: Cəfər Cabbarlı Azərbaycan sovet dramaturgiyasının banisi, çoxəsrlik Azərbaycan ədəbiyyatının fəxridir. Xalqımızın yeni həyatı, sosialistcəsinə dirçəlişi onun zəngin, dərin və orijinal yaradıcılığında öz əksini tapmışdır.

SSRİ Xalq artisti Hökümə Qurbanova öz çıxışında unudulmaz dramaturq ilə görüşləri haqqında xatirələrini söylədi.

Ukrayna yazıçısı Aleksandr Dyaçenko dedi: Cabbarlının əsərlərində Azərbaycan xalqının həyatının ən müxtəlif cəhətləri öz əksini tapmışdır. Bu gün biz bütün bunlar üçün yazıçıya ehtiramımızı bildirir və onu Azərbaycan xalqını qardaş milli ədəbiyyatların ən yaxşı nailiyyətləri ilə tanış etmək üçün çox iş görən bir insan kimi dərin minnətdarlıqla xatırlayırıq.

Moskva yazıçısı Leonid Lenç dedi: C.Cabbarlının yaradıcılıq taleyi həqiqətən heyrətamizdir: o, cəmi 35 il ömür sürsə də, Azərbaycan ədəbiyyatının klassiki sayılır. Mən arzu edirəm ki, Moskvada milli pyes teatrı yaradılsın. Cabbarlının dramları həmin teatrın repertuarına xüsusi yaraşıq verərdi.

Özbək yazıçısı Rəhmət Feyzi dedi: Mən Moskvaya Daşkənddən, üç il əvvəl zəlzələdən zərər çəkən və dostların köməyi ilə bərpa edilən bir şəhərdən gəlmişəm. Şəhərimizin bugünkü siması xalqlar dostluğunun gözəl təcəssümüdür. Görkəmli Azərbaycan yazıçısı Cəfər Cabbarlı bu dostluğun tərənnümçüsü idi. Daşkənddə Azərbaycan inşaatçıları tərəfindən ucaldılan evlər də vardır. Həmin evlər görkəmli özbək yazıçısı və musiqiçisi Həmzə Niyazinin adını daşıyan rayonda ucalır. Cəfər Cabbarlının yubileyi ərəfəsində Daşkənd Şəhər Sovetinin İcraiyyə Komitəsi həmin rayonun küçələrindən birinə məşhur Azərbaycan yazıçısının adını verməyi qərara almışdır.

Yazıçı M.Qaynullin dedi ki, Cəfər Cabbarlının yaradıcılığı Tatarıstanda bir çox illərdir ki, böyük şöhrət qazanmışdır.




Sergey Vasilyev Cəfər Cabbarlıya həsr etdiyi şeirini oxudu.

Həmin axşam salona toplaşanlar C.Cabbarlının yaradıcılığı ilə tanış oldular. Azərbaycan incəsənət ustalarının bayram konsertində M.Əzizbəyov adına Akademik Dram Teatrının “Almaz” tamaşasından, F.Əmirovun M.F.Axundov adına Akademik Opera və Balet Teatrında göstərilən “Sevil” operasından səhnələr ifa olundu. “Dönüş”, “Od gəlini” pyeslərindən monoloqlar, Cəfər Cabbarlının şeirlərinə yazılmış mahnılar oxundu...

Konsertin axırında respublikanın Əməkdar artisti N.Rzayevin idarəsi ilə Azərbaycan Radiosunun və Televiziyasının kamera orkestri bəstəkar Rauf Hacıyevin “Cəfər Cabbarlıya ithaf” əsərini ilk dəfə ifa etdi.

*“Ədəbiyyat və incəsənət” qəzeti, 25 oktyabr 1969-cu il*

Yubilyar filmlər

# "Küçələrə su səpmişəm" – film-pritça

Mərhum rejissor Nicat Feyzullayevin (1945–2015) "Küçələrə su səpmişəm" filmi (2004) adındakı lirik-romantik ovqatı qəribə tərzdə doğruldan kifayət qədər ağır mətləbli bir ekran işidir. Bu məqamda belə bir izah da öz yerini tuta bilər: lirik-romantik ad mətləbin ağırlığını nisbətən yüngülləşdirmək üçün seçilib. Bu ağırlıq isə heç də yekcins, birtərəfli səciyyə daşımır.

İki əmioğlu Xəlillə Bəhmənin bir-birinə münasibəti son dərəcə istiqanlıdır, daha doğrusu, Xəlil əmisi oğlu Bəhməni o dərəcədə çox istəyir ki, Bəhmənin əlindəki ov tüfənginin təsadüfən açılması nəticəsində ölüm hadisəsinin həbs cəzasını çəkməyə belə gedir.

Film-pritça İsi Məlikzadənin (1934–1995) eyniadlı əsəri əsasında (ssenari müəllifləri İsi Məlikzadə və Nicat Feyzullayev) çəkilib.

Xəlil Tibb İnstitutunun tələbəsi əmioğlusu Bəhmənin kəndə gəlməsi münasibətilə uşaqlıq dostu Tağını da dəvət edib kiçik bir məclis qurur. Böyüklərdən gizlin araq da alır: Xəlilin atasının qırxı yenicə çıxıb, ona görə belə bir məclisin vaqe olmasını o, əslində, doğru saymır, böyüklərin, kənd camaatının qınağından çəkinir. Amma istəkli əmioğlusunun kənddə keçirəcəyi bir neçə günü xoş ovqatlı etmək istəyi üstün gəlir. Yeyib-içmək məclisindən sonra ova çıxmaq təklifi Xəlilin ürəyincə olmur, çox könülsüz, tüfəngsiz qoşulur əmisi oğlu ilə dostuna.



Bu məqamda hadisələrin mərkəzinə eqo adlı məfhum keçir və aşkar olur ki, Bəhməndə eqo ifrat dərəcədədir, Xəlildə isə, ümumiyyətlə, bu hiss yoxdur. Hər iki hal insanın başını bəlalara salacaq qədər təhlükəlidir. Məsələn, Xəlildə zərrə qədər eqo hissi olsaydı, o, əmioğlusunun kənddə olduğu günlərini xoş ovqatlı etməyin qayğısına qalıb, nəticədə tamamilə günahsız olaraq həbs çəkib şəxsi arzularına, niyyətlərinə "əlvida" demək əvəzinə, artıq tələbə olan Bəhmənlə təhsillə bağlı söhbətlər edərdi, növbəti il üçün hazırlaşdığı qəbul imtahanları fənlərini daha yaxşı mənimsəmək üçün onunla fikir mübadiləsi aparıb, tövsiyələr alardı. Və belə davranış daha normal təsir bağışlayacaqdı, heç bir peşmançılıq, birinin özünü günahkar hiss etmək, digərinin qarşı tərəfdən baş verənlərdən nəticə çıxarmağı gözləmək kimi səssiz faciələr yaşanmayacaqdı...



Hekayənin bütün kulminasiyası məhz bu epizoddadır – Xəlillə Bəhmən ali məktəbə imtahan verməyə birlikdə getmişdilər, Bəhmən qəbul olub Bakıda qalıb, Xəlil isə kəndə qayıdıb və ailə üzvlərini məyus edib.

Yeri gəlmişkən, orta məktəb məzununun ali məktəbə qəbul olmamasını dramatikləşdirmək, bundan son dərəcə pəjmürdə olmaq, həmin gəncə qınayıcı münasibəti (bilərəkdən, yaxud bilməyərəkdən) büruzə vermək nəticədə faciəyə, bədbəxtliyə yol açan tamamilə yolverilməz bir davranışdır. Belə də olur: Xəlil təsadüfən adam öldürmək üstündə beş ilini həbsxanada keçirib azadlığa çıxdıqdan sonra başqa bir rayonda məskunlaşır, ali təhsilli həkim olmaq arzusunu unudub ocaqxanada işləməyə başlayır, ağlıkəsəndən sevdiyi, gündə iki dəfə evlərinin yanından keçərkən "Küçələrə su səpmişəm" mahnısını oxuduğu Sadayı unutmağa çalışır... Teybə ilə evlənir.

Bəhmən ehtiyatsızlıq üzündən Tağını öldürdüyü üçün Xəlildən onun əvəzinə həbsə getməyi xahiş edir, çünki onu işıqlı gələcək gözləyir – təhsilini bitirməlidir, həkim fəaliyyətinə başlamalıdır...

## Kadrarxası məqamlar

Film haqqında yazımızın bu hissəsində Bəhmən rolunun ifaçısı Rasim Balayevin, Teybə rolunu oynayan Mehriban Zəkinin, Bəhmənin gəncliyini canlandıran Elnur Kərimovun, Xəlilin gəncliyini oynamış Amid Qasımovun xatirə və təəssüratı da ola bilərdi. Amma, təəssüf ki (bizdən asılı olmayan səbəbdən), olmadı…

Odur ki, əvvəlcə filmin quruluş müəllifi Nicat Feyzullayevin oğlu rəssam-dizayner Aqşin Feyzullayevi dinləyək: "Bu filmin ərsəyə gəlməsi çox böyük çətinliklərdən keçdi. Amma çəkilən əziyyətə dəydi – Bakıda "Şərq-Qərb" kinofestivalında premyerası oldu, sənət adamları və kinosevərlər tərəfindən çox yaxşı qarşılandı. Belarusda "Listopad" festivalında iştirak etdi.

Atam rəssam ailəsində böyüdüyü üçün bu sahədən başı çıxırdı. Ona görə hətta filmin quruluşçu rəssamının babamın tələbəsi, Xalq rəssamı Rafis İsmayılov olmasına baxmayaraq belə, onunla da mübahisələri olurdu. Fuad Poladovun filmdəki gənclik rolunu oynayan aktyoru tapmaq daha asan baş verdi. Rasim Balayevin gəncliyini canlandıracaq aktyoru tapmaq bir az çətin başa gəldi. Nəhayət, bir gün atam gəlib dedi ki, Akif Rüstəmov bir cavan aktyor tapıb, məni qane edir, gözümə duran problem bu idi, bu da həll edildi. Ssenarini yazanda Fuad Poladovun Xəlili, Rasim Balayevin Bəhməni oynayacağını özü üçün yəqinləşdirmişdi. Amma bunu onlara bildirmədən ssenarini vermişdi ki, oxuyub özlərini hansı rolda təsəvvür etdiklərini bildirsinlər. Rasim Balayev özünü Bəhmən obrazında görmüşdü, Fuad Poladov Xəlil obrazında.

Kürlə Arazın birləşdiyi və ayrıldığı yeri göstərmək və bununla da lap kiçik yaşlarından çox mehriban ünsiyyətdə olan iki əmioğlunun yollarının ayrılmasını kino dili ilə çatdırmaq üçün vertolyotla çəkiliş



aparılmalı idi. Amma filmə ayrılan büdcə az olduğundan vertolyot çəkilişini ixtisar etmək istəyirdilər. Onda atam dedi ki, onun uçun ayrılmış maşından imtina edir. Beləliklə, çəkiliş üçün ayrılmış maşın əvəzinə vertolyot çəkilisi reallaşdı. İndiyə qədər atamın tamam başqa sahələrdə çalışan dostları zəng edib bu filmə baxandan sonra necə təsirləndiklərini deyirlər. Bu o deməkdir ki, film təsir qüvvəsini saxlaya bilir. Atam klassik Azərbaycan mahnılarına köklənmiş silsilə filmlər çəkmək niyyətində idi. "Küçələrə su səpmişəm" filmindən sonra "Əgər qismətim olarsa" filmini çəkmək istəyirdi, ssenarini də yazıb tamamlamışdı, ömür vəfa etmədi...".

***

Filmin ikinci rejissoru Akif Rüstəmov: "Nicat Feyzullayevlə dost idik. Kinoya ürəklə yanaşan rejissorlardan idi. Sənətə gəldiyi ilk vaxtlardan ona dayaq olmuşam. Bu filmdə də başqa cür ola bilməzdi. İsi Məlikzadənin bu əsərini ekranlaşdırmaq onun arzusu idi. Film tamaşaçılar tərəfindən ilk gündən sevildi. Çünki rejissorun ürəyinin istisi hər kadrda duyulur. Bəhmən roluna Rasim Balayevin, Xəlil roluna Fuad Poladovun, Teybə roluna Mehriban Zəkinin çəkiləcəyini Nicat əvvəldən müəyyən etmişdi. Ona görə bu rollara başqa aktyor seçimi olmadı. Bədii şura da bu seçimləri təqdir etmişdi. Yeri gəlmişkən, Fuad Poladovla Mehriban Zəki üçün Nicat başqa bir mövzuda ayrıca bir ssenari də yazmışdı. O ssenari məndədir. Adı belədir: "Əgər qismətim olarsa".

Qayıdaq mövzumuza. Bəhmənlə Xəlilin gənclik yaşlarını canlandıracaq aktyorları seçmək ikinci rejissorun vəzifəsi olduğu üçün axtarışlara başladım. Fotosınaqlardan təxminən 40 nəfər keçdi. Nəhayət, Elnur Kərimovla Amid Qasımovu seçdik. Elnuru bir neçə gün müşahidə edəndən sonra sınaq çəkilişlərinə dəvət etdim. Onun gözlərinin rəngi açıq olduğu üçün linzadan istifadə etməli olduq. Amidi tapmağıma isə sənət dostum, aktyor və pedaqoq Vidadi Həsənov kömək etdi. Biləndə ki, belə bir gənc aktyor axtarıram dedi ki, gəl, mənim teatrımdakı aktyorları da nəzərdən keçir. Mən də orda Amid Qasımovu seçdim. Seçim o qədər uğurlu alınmışdı ki, Amidi kinostudiyada görənlər Fuad Poladov olduğunu zənn etmişdilər. Bu filmdə çəkilmək o gənc aktyorların yaradıcılıq yoluna böyük işıq saldı...".

Lentə alınan birinci epizod Bəhmənlə Xəlilin aynabənddə uzanıb öz aləmlərinə qapıldıqları səhnə idi. Xəlilin kənddə seçib-sevdiyi qız üçün oxuduğu "Küçələrə su səpmişəm" mahnısı isə plastinkadan səslənir.

***

Filmin quruluşçu operatoru Kənan Məmmədov: "Küçələrə su səpmişəm" filmi mənim kino yaradıcılığımda xüsusi yer tutur. Rəhmətlik Nicat Feyzullayevlə dostluq edirdik və həmişə mənə deyirdi ki, bir proyektim var, o filmi mütləq səninlə çəkmək istəyirəm. Nəhayət, 2004-cü ildə həmin ssenarini mənə verdi. Oxudum, çox bəyəndim və çəkilişlərə razılığımı verdim. Ümumiyyətlə, hər filmdə problemlər olur… Bu filmdə də vardı, əsasən maddi problemlər...

Çəkilişləri naturada və dekorasiyada aparırdıq. Ov səhnəsinin finalı Abşeronda, Masazırda duz gölünün ətrafında çəkildi. İndi bu göl hasarla əhatə olunub. Biz çəkən zaman sahil ağappaq duzla dolu idi. Həmin faciəli səhnə bu məkanda cəkilib. Xəlilin iş yeri olan ocaqxana isə Balaxanıda lentə alınıb.

Filmdə Azərbaycanın iki böyük aktyoru iştirak edir - mərhum dostum Fuad Poladov və Rasim Balayev. Onlarla çəkiliş meydançasında işləməkdən böyük zövq alırdım. Mehriban Zəki çox maraqlı bir surət yaratmışdı filmdə. Xüsusilə gənc aktyorlar haqqında danışmaq istərdim. Elnur Kərimov və Amid Qasımov, bizim çox istedadlı aktyorlarımız düzgün oyun ideyasını tapmış və nəticədə ekranda real xarakterlər canlandırmışdılar.

Ümumiyyətlə desəm, bu film Azərbaycan kinosunun, şübhəsiz, uğurudur və mərhum dostum Nicatın bizə qoyub getdiyi yadigardır".

## Sözardı…

"Küçələrə su səpmişəm" filmi 2005-ci ildə "Humay" milli mükafatına layiq görülüb. Ekran işinin birinci epizodunda səslənən "Küçələrə su səpmişəm" mahnısı leytmotiv kimi film boyu tamaşaçının qulağından əskik olmur. Və son epizodların birində aşkar edirik ki, Xəlil ilk sevgisi Sadayı qətiyyən unutmayıb – məskunlaşıb ocaqçı işlədiyi, gözəl ailə qurduğu, bir qız, bir oğul sahibi olduğu kənddə dəvət edildiyi toyda "Küçələrə su səpmişəm" mahnısını sifariş edib rəqs edəcək qədər ilk məhəbbətinə sadiqdir.

Xəlil sevməyi də bacaran, yaxşı ailə başçısı, güvənli ər olmağın da öhdəsindən gələn, sədaqətli dost və istiqanlı qohumdur. Bu qədər müsbət keyfiyyət arasında qədərində eqosu da olsaydı, nisgil hissinin nə demək olduğunu bilməzdi…

**Samirə Behbudqızı**

## "Mütaliə ruhu"

### Kitab illüstrasiyası ənənəsini təbliğ edən müsabiqə

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində kitab mütaliəsinə rəng qatan illüstrasiya ənənəsini unutdurmamaq məqsədilə uşaq, yeniyetmə və gənclər arasında "Mütaliə ruhu" adlı respublika yaradıcılıq müsabiqəsi elan olunub.




Müsabiqə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Xətai Rayon İcra Hakimiyyətinin dəstəyi, Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilir.

Xətai Sənət Mərkəzindən bildirilib ki, iştirakçılar uşaq və xalq ədəbiyyatı, müəllif əsərləri, həmçinin təbiət və məişət mövzulu ədəbiyyat nümunələrində bəhs olunan hər hansı bir səhnə və epizodları xarakterizə etdirən illüstrasiya və ya miniatür təsvirlərlə müsabiqəyə qoşula bilər.

Hər müəllif müsabiqəyə 2 əsər göndərə bilər. Münsiflər tərəfindən seçilmiş 100 əsər sərgilənəcək. Sərgidən seçilən ən yaxşı 20 əsər Xətai Sənət Mərkəzinin daimi ekspozisiyasında iki həftə nümayiş olunacaq.

Sərgilənən əsərlərin müəlliflərinə sertifikat, fəal məktəblərə təşəkkürnamə təqdim ediləcək.

Əsərlər dekabrın 10-dək mutalieruhu@gmail.com ünvanına göndərilməlidir. Əlavə məlumat üçün (051) 310-74-01 vatsap nömrəsinə yazaraq cavab almaq olar.

## Xatirə təqvimi

**25 – 29 oktyabr**

### Azərbaycan

**25 oktyabr 1907** – Ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Mirzəağa Yüzbaşı oğlu Quluzadə (1907–1979) anadan olub. 50-ci illərdə Azərbaycan EA-nın Ədəbiyyat və Dil İnstitutunun direktoru işləyib.

**25 oktyabr 1911** – Biblioqraf, ədəbiyyatşünas, pedaqoq Əliheydər Bala oğlu Qəhrəmanov (1911–1959) anadan olub.

**25 oktyabr 1912** – Xalq rəssamı Bədurə Məlik qızı Əfqanlı (Ağamalova; 1912 – 6.5.2002) anadan olub. Akademik Milli Dram Teatrında, "Azərbaycanfilm" kinostudiyasında geyim üzrə rəssam işləyib.

**25 oktyabr 1921** – Xalq artisti Nəcibə Haşım qızı Məlikova (1921 – 6.7.1992) anadan olub. Gəncə teatrında, 1952-ci ildən Akademik Dram Teatrında çalışıb. "Ögey ana", "Aygün", "Əhməd haradadır?" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**25 oktyabr 1925** – Yazıçı, tarixçi, şərqşünas Əbdül Ənbiyə oğlu Hüseynov (1925 – 14.5.2017) Bakının Əmircan kəndində doğulub. 1960-cı ildən Moskvada yaşayıb. "İslam dünyasının cəngavəri", "Üsyankar Xaqani" və s. tarixi romanların müəllifidir.

**25 oktyabr 1930** – Xalq rəssamı, qrafik Elmira Həbibulla qızı Şahtaxtinskaya (1930 – 13.10.1996) Bakıda anadan olub. "Azərbaycan qədim mədəniyyət diyarıdır" plakatlar silsiləsi, "Novruz bayramı" tablosu və s. əsərlərin müəllifidir.

**25 oktyabr 1935** – Qəzəlxan şair Hacı Mail (Mail İsmayıl oğlu Əliyev; 1935 – 22.8.1999) anadan olub.

**25 oktyabr 1954** – Görkəmli aktyor, SSRİ Xalq artisti Mirzəağa Əli oğlu Əliyev (1883–1954) vəfat edib. 1919-cu ildən Azərbaycan Dövlət Dram Teatrında çalışıb. Bakı Tənqid-Təbliğ Teatrının təşkilatçılarından olub. "Hacı Qara", "Almaz", "Bakının işıqları" və s. filmlərdə çəkilib.

**25 oktyabr 1965** – Əməkdar incəsənət xadimi, tanınmış rəssam Vəcihə Əli qızı Səmədova (1924–1965) vəfat edib. Əsərləri: "Toy günü", "Nişan aparanlar", "Kür qırağında" və s.

**25 oktyabr 2008** – Dünyaca məşhur müğənni və bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti Müslüm Maqomayev (17.8.1942 – 2008) vəfat edib. Bakıda, Fəxri xiyabanda dəfn olunub.

**26 oktyabr 1925** – Tanınmış rəssam Əşrəf Murad oğlu Murad (1925 – 11.3.1979) Bakıda anadan olub. Avanqard və nonkomformist cərəyanların nümayəndəsi kimi tanınıb, portret və natürmort janrlarında əsərlər çəkib.

**26 oktyabr 1982** – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə böyük ədib Hüseyn Cavidin (1882-1941) nəşi Rusiyanın İrkutsk vilayətindən gətirilərək Naxçıvanda dəfn edilib.

**26 oktyabr 1983** – Xalq artisti, violonçel ifaçısı Sabir Hüseynəli oğlu Əliyev (9.5.1928 – 1983) vəfat edib. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**26 oktyabr 2000** – Əməkdar mədəniyyət işçisi, aşıq Kamandar Həmid oğlu Əfəndiyev (21.10.1932 – 2000) vəfat edib.

**26 oktyabr 2013** – Əməkdar artist Tofiq Əşrəf oğlu Qarayev (2.7.1953 – 2013) vəfat edib. Ağdam Dövlət Dram Teatrının aktyoru olub.

**26 oktyabr 2014** – Yazıçı, Əməkdar mədəniyyət işçisi Cəmil Adil oğlu Əlibəyov (5.12.1927 – 2014) vəfat edib. "Azərbaycanfilm"in direktoru olub. Rus dilindən ədəbi tərcümələr edib.

**26 oktyabr 2017** – Xalq artisti Rafiq Eyyub oğlu Hüseynov (4.8.1946 – 2017) vəfat edib. 30 ilə yaxın Azərbaycan Televiziyasının aparıcı diktorlarından biri olub.

**27 oktyabr 1900** – Azərbaycanın və SSRİ-nin Xalq artisti, rejissor, aktyor Mixail İvanoviç Jarov (1900-1981) Moskvada doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrında (1933–1937) çalışıb.

**27 oktyabr 1931** – Xalq artisti, opera müğənnisi (bariton) Mürsəl Tağı oğlu Bədirov (1931 – 26.2.2003) Dərbənd şəhərində doğulub. 1956-cı ildən Akademik Opera və Balet Teatrının solisti olub.

**27 oktyabr 1931** – Əməkdar elm xadimi, filosof alim, professor Cəmil Teymur oğlu Əhmədli (1936–2010) Gədəbəy rayonunun Söyüdlü kəndində anadan olub.

**27 oktyabr 1932** – Bəstəkar, Azərbaycan musiqi tarixində ilk romansların müəllifi Asəf Zeynalabdin oğlu Zeynallı (5.4.1909 – 1932) vəfat edib. Tamaşalara musiqi bəstələyib, Azərbaycanda uşaq musiqisi repertuarının əsasını qoyub, xalq mahnılarını nota alıb.

**27 oktyabr 1936** – Xalq artisti, tanınmış diktor Sabir Məmməd oğlu Ələsgərov (1937 – 20.11.2020) Tiflisdə doğulub. Azərbaycan Radiosu və Televiziyasının baş diktoru olub.

**27 oktyabr 1937** – İctimai xadim, diplomat, publisist Ramiz Abutalıb oğlu Abutalıbov (1937 – 1.1.2022) anadan olub. 1970–80-ci illərdə SSRİ-nin UNESCO-dakı nümayəndəliyində çalışıb, 1992–2004-cü illərdə Azərbaycanın təşkilatda daimi nümayəndəsi olub.

**27 oktyabr 2021** – Əməkdar rəssam, heykəltaraş Zeynalabdin Əli oğlu İsgəndərov (26.7.1949 – 2021) vəfat edib. Görkəmli şəxsiyyətlərin qəbirüstü abidələrini, barelyeflərini hazırlayıb.

**28 oktyabr 1911** – Xalq yazıçısı, dramaturq, Sosialist Əməyi Qəhrəmanı Mirzə Əjdər oğlu İbrahimov (1911 – 17.12.1993) Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində anadan olub. Əsərləri: "Gələcək gün", "Böyük dayaq" (romanlar), "Həyat", "Kəndçi qızı" (pyeslər) və s. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri (1954-1958) olub, Yazıçılar Birliyinə rəhbərlik edib.

**28 oktyabr 1927** – Tanınmış tarzən Şirin Məşədi Hüseyn oğlu Axundov (1878 –1927) vəfat edib. Bir çox ustad xanəndələri müşayiət edib.

**28 oktyabr 1952** – Ədəbiyyatşünas alim, professor Şirindil Həsən oğlu Alışanlı (1952 – 14.3.2024) Laçın rayonunun Əhmədli kəndində anadan olub.

**29 oktyabr 1941** – Xalq artisti Ağaxan Əli oğlu Salmanlı (1941 – 29.2.2020) Bakıda anadan olub. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru olub. Televiziya tamaşalarında çəkilib. Uşaqlar üçün pyeslərin müəllifidir, bir neçə tamaşaya quruluş verib.

**29 oktyabr 1949** – Tanınmış aktyor Şahin Cəbrayılov (1949 – 5.9.2007) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. Televiziya tamaşalarında, filmlərdə çəkilib.

**29 oktyabr 1996** – Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılış mərasimi keçirilib. Prezident Heydər Əliyevin təşəbbüsü ilə yaradılan məqbərənin layihə müəllifi Əməkdar memar Rasim Əliyev, heykəltaraşı Xalq rəssamı Ömər Eldarovdur.

**29 oktyabr 2004** – Tanınmış rəssam, animator, kitab illüstratoru Nazim Məmmədov (1934 –2004) vəfat edib.

### Dünya

**25 oktyabr 1838** – Fransız bəstəkarı Jorj Bize (Alexandre-Cesar-Leopold Bizet; 1838 - 3.6.1875) anadan olub. Operaları: "Karmen", "Camile", "Mərcan axtaranlar" və s.

**25 oktyabr 1864** – Qırğız milli ədəbiyyatının banilərindən biri, şair, aşıq Toktoqul Satılqanov (1864-1933) anadan olub.

**25 oktyabr 1881** – İspan rəssamı, heykəltaraş Pablo Pikasso (Pablo Ruiz Picasso; 1881 - 8.4.1973) anadan olub.

**25 oktyabr 1894** – XX əsr türk xalq poeziyasının ustadı Aşıq Veysəl (Veysəl Satıroğlu; 1894 - 21.03.1973) Sivasda doğulub.

**26 oktyabr 1819** – Yəhudi əsilli Danimarka yazıçısı, dramaturq Myer Qoldşmidt (Meir Aron Goldschmidt; 1819–1887) anadan olub.

**26 oktyabr 1842** – Rus batalist rəssamı Vasili Vasilyeviç Vereşşagin (1842–1904) anadan olub. Əsərləri: "Müharibənin təntənəsi", "Teymurləngin qapıları" və s.

**27 oktyabr 1782** – İtalyan bəstəkarı, məşhur skripkaçı Nikkolo Paqanini (Niccolo Paganini; 1782 – 27.5.1840) anadan olub.

**27 oktyabr 1883** – Litva şairi və dramaturq Mikolas Vaytkus (Mykolas Vaitkus; 1883–1973) anadan olub.

**28 oktyabr** Beynəlxalq Animasiya Günüdür (International Animation Day). 1892-ci ilin 28 oktyabrında fransalı rəssam Emil Reno ekranda ilk animasiya lentini nümayiş etdirib.

**28 oktyabr 1957** – Türkiyə müğənnisi, bəstəkar Əhməd Qaya (1957 – 16.11.2000) Malatyada anadan olub.

**29 oktyabr 1933** – Türk satirik yazıçısı Müzəffər İzgü (1933 – 26.8.2017) anadan olub. 100-dən çox kitabı nəşr olunub, 200-dək yumoristik radiopyes yazıb.

**Hazırladı: V.Orxan**

№79-80 (2145)
25 oktyabr 2024
www.medeniyyet.az

# Moskvada azərbaycanlı rəssam-heykəltaraşın "Okean röyaları"

Moskvada azərbaycanlı və rusiyalı rəssam, heykəltaraş Aydın Zeynalovun "Okean röyaları" adlı fərdi sərgisi açılıb.



Təqdim olunan əsərlər rəssamın təbiətlə ahəngdar həyat haqqında fəlsəfi fikirlərini əks etdirir. Layihə Aydın Zeynalovun dəniz hövzələrinə olan həvəsi və dünya okeanlarının çirklənməsinin miqyası barədə artan məlumatlılığı ilə diktə edilib.

Rəssam deyib: "Üç ildən bir 30-40 əsərdən ibarət silsilə əsər sərgiləyirəm. Əvvəlki sərgim Yaxın Şərqlə bağlı idi, çünki atam Rusiya Xarici İşlər Nazirliyində işləyirdi və ərəbşünas idi. Mən ərəb ölkələrində çox vaxt keçirmişəm. Bugünkü sərginin mövzusu okeandakı tullantılardır. Təxminən 20 ildir ki, dəniz hövzələrinə həvəsim var. Balıqları öyrənərkən, onların tez-tez su hövzələrinin plastiklə çirklənməsi nəticəsində ölməsi faktı ilə rastlaşdım və anladım ki, sivilizasiya ilə təbiətin vəhdəti çox mürəkkəb və dərin mövzudur".

Aydın Zeynalov hesab edir ki, təbiət özü insanlarla birgə yaşamağın yollarını axtarır: "Bu sərginin köməyi ilə demək istərdim ki, insan da öz hərəkətləri haqqında düşünməli, təbiətə qayğı göstərməlidir".

Rəssam qeyd edib ki, Bakıda keçiriləcək COP29 çox əlamətdar hadisədir: "Azərbaycan nəhəng təbii sərvətlərə malik ölkə kimi ekoloji problemlərdən uca səslə danışır, dünya birliyində layiqli mövqe tutur".

Aydın Zeynalov V.İ.Surikov adına Moskva Dövlət Akademik Rəssamlıq İnstitutunu heykəltaraşlıq və Moskva Memarlıq İnstitutunu dizayner ixtisası üzrə bitirib. S.G.Stroqanov adına Moskva Dövlət Rəssamlıq və Sənaye Akademiyası Akademik rəsm kafedrasının dosenti, Rusiya Rəssamlıq Akademiyasının müxbir üzvüdür. "INTER-ESSE" Fənlərarası Tədqiqatlar İnstitutu Elmi və Tədris Fəaliyyətinə Dəstək Fondunun təsisçisi və direktorudur. 2017-ci ildə Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvüdür.

# "Yenidən doğulmuş gözəllik"

## Sənaye tullantılarından heykəllər – COP29 ərəfəsində sərgi

Heydər Əliyev Mərkəzində heykəltaraşlıq nümunələrinin təqdim olunacağı daha bir sərgi nümayiş etdiriləcək. Noyabrın 7-də açılışı olacaq "Yenidən doğulmuş gözəllik" ("Reclaimed Beauty") adlı sərgidə nigeriyalı heykəltaraş Dotun Populanın (Dotun Popoola) əl işləri yer alacaq.

Müxtəlif ölkələrdə əsərləri nümayiş olunan müəllifin Bakı sərgisinin COP29 ərəfəsində açılması təsadüfi deyil, çünki ekspozisiya bu qlobal iqlim tədbiri ilə səsləşir. Dotun Popula əl işləri ilə iqlim dəyişiklikləri problemini də qabardır. Üstəlik, o, heykəlləri ənənəvi materiallardan deyil, sənaye tullantılarına çevrilmiş metal hissələrdən hazırlayır.

Qeyd edək ki, 2012-ci ildən ölkəmizdə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə geniş ictimaiyyətin diqqətini ekoloji problemlərə cəlb etmək məqsədi daşıyan "Tullantıdan sənətə" adlı beynəlxalq festival keçirilir. Festivalda hazırlanan işlər məişət tullantılarının sənət əsərinə çevrilməsinin mümkünlüyünü nümayiş etdirir. 2015-ci ildə Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunda "Tullantıdan sənətə" adlı muzey yaradılıb.




Nigeriyalı heykəltaraş da tullantı metallardan hazırladığı əsərləri vasitəsilə hazırda bəşəriyyət üçün başlıca problemə çevrilən iqlimin qorunması, ətraf mühitə qayğının vacibliyinə diqqəti cəlb etməyi bacarır.

# Ölkəmizin işgüzar turizm imkanları Əbu-Dabidə təqdim olunub




Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən (20–23 oktyabr) Beynəlxalq Konqres və Konvensiya Assosiasiyasının (ICCA) 63-cü konqresində Azərbaycanın işgüzar turizm imkanları da tanıdılıb.

Dövlət Turizm Agentliyindən bildirilib ki, konqresdə ölkəmizi Azərbaycan Turizm Bürosu təmsil edib. İşgüzar turizm sahəsi üzrə aparıcı mütəxəssislər və agentliklərlə keçirilən görüşlərdə Azərbaycanda işgüzar tədbirlərin təşkili üzrə mövcud infrastruktur və bütövlükdə ölkəmizin turizm potensialı haqqında məlumat verilib.

ICCA dünyanın turizm və görüşlər sahəsində fəaliyyət göstərən nüfuzlu təşkilatlarından biridir. Qurumun üzvləri sırasına dünyanın 90 ölkəsində fəaliyyət göstərən mindən çox beynəlxalq görüşlər sənayesi bazarı təmsilçiləri daxildir.

# Hyustonda azərbaycanlı dirijorun rəhbərliyi ilə balet tamaşası

Dekabrın 7-8-də ABŞ-nin Hyuston şəhərində (Texas ştatı) azərbaycanlı dirijor Təranə Teylorun rəhbərlik etdiyi Hyuston Repertuar Balet Orkestrinin (HRB) müşayiəti ilə rus bəstəkarı Pyotr Çaykovskinin "Şelkunçik" baleti nümayiş olunacaq.



Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, baletdə əsas rolları amerikalı balet artistləri Li Fleytoks (Léa Fleytoux) və Ceyk Roksander (Jake Roxander) ifa edəcəklər.

Təranə Teylorun dirijorluğu ilə "Şelkunçik" baletinin ilk təqdimatı 2023-cü ildə nümayiş olunub və Texas ictimaiyyəti tərəfindən maraqla qarşılanıb.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının məzunu olan Təranə Teylor solo, orkestr, teatr və balet musiqisində təcrübəyə malik pianoçudur. Yeddi il HRB orkestrində pianoçu kimi fəaliyyət göstərib. Orkestrin üzvləri ABŞ-nin və dünyanın müxtəlif ölkələrinin səhnələrində çıxış edən tanınmış musiqiçilərdir. Təranə Teylorun 2024-cü ildə yaratdığı Texas Musiqi klubunun tələbələri "All State Music" festivalında mükafatlar qazanıblar.

# Tarixdə bu gün

## Olaylar, faktlar (25 – 30 oktyabr)



### Xronoqraf

**106 il əvvəl...**

**30 oktyabr 1918-ci ildə** I Dünya müharibəsində məğlub duruma düşən Osmanlı dövləti müharibənin qalibi sayılan Antanta ölkələri (Britaniya, Fransa, ABŞ) ilə Mudros sülh sazişi imzalayaraq qoşunlarını Azərbaycandan və bütün Cənubi Qafqazdan çıxarmaq barədə öhdəlik götürüb. Bakını tərk edən türk qoşunlarının yerinə şəhərə ingilis qüvvələri daxil oldu.

**101 il əvvəl...**



**29 oktyabr 1923-cü ildə** Türkiyə Cümhuriyyətinin yarandığı elan edilib. Türkiyə Böyük Millət Məclisində keçirilən mərasimdə Qazi Mustafa Kamal ölkənin ilk Prezidenti seçilib.

**86 il əvvəl...**

**28 oktyabr 1938-ci ildə** Azərbaycan SSR Xalq Maarif Komissarlığının əmri ilə Dövlət Musiqili Komediya Teatrı (Azərbaycan və rus truppası) yaradılıb. 1948-ci ildə bir sıra teatrların özünümaliyyələşdirməyə keçməsi ilə bağlı fəaliyyətini dayandırıb. 1956-cı ildə fəaliyyətini bərpa edib. Hazırda Azərbaycan Dövlət Akademik Musiqili Teatrı adlanır.

**51 il əvvəl...**

**25 oktyabr 1973-cü ildə** növbəti Ərəb-İsrail müharibəsi ("Məhşər günü" savaşı) yekunlaşıb. Oktyabrın 6-da yəhudilərin əlamətdar dini günü ("Məhşər günü" – Yom Kipur) qeyd olunduğu vaxt Misir və Suriya qüvvələrinin İsrailə qarşı başladığı savaşın məqsədi 1967-ci ildəki "Altıgünlük müharibə"də (5-10 iyun) məğlubiyyətin əvəzini çıxmaq idi. Lakin bu müharibəni də İsrail qazandı və 6 il əvvəl zəbt etdiyi Sinay yarımadasına (Misir) nəzarəti saxlamaqla bərabər, Suriyanın Qolan təpələrini (paytaxt Dəməşqin 40 km-də) də ələ keçirdi.

**31 il əvvəl...**

**27-29 oktyabr 1993-cü ildə** Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində Füzuli rayonunun Horadiz qəsəbəsi və Arazboyu kəndləri, Cəbrayıl rayonunun Arazboyu kəndləri və Zəngilan rayonu işğal olunub. Zəngilan Azərbaycanın Ermənistan tərəfindən işğal edilən axırıncı rayonu oldu. 27 il sürən işğala 2020-ci ilin Vətən müharibəsində son qoyuldu.

**29 il əvvəl...**

**28 oktyabr 1995-ci ildə** Bakı metrosunda dəhşətli qəza baş verib. "Nərimanov" və "Ulduz" stansiyaları arasında sərnişin qatarında baş vermiş yanğın nəticəsində, rəsmi məlumatlara görə, 286 nəfər həlak olmuşdu. 269 nəfər xəsarət almış, 400 nəfər xilas edilmişdi. Bu, dünya tarixində ən böyük metro qəzası idi. 29-30 oktyabrda ölkədə matəm elan olundu.

**7 il əvvəl...**



**30 oktyabr 2017-ci ildə** Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təntənəli açılışı olub. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında (Ələt qəsəbəsi) keçirilən mərasimdə Azərbaycan və Türkiyə prezidentləri, Gürcüstan, Qazaxıstan və Özbəkistanın baş nazirləri iştirak etmişdilər. 850 kilometrlik yolun 504 kilometri Azərbaycan ərazisindən keçir.

**4 il əvvəl...**

**26 oktyabr 2020-ci ildə** 44 günlük Vətən müharibəsi gedişində Ermənistanın işğalı altında olan daha bir rayon mərkəzi – Qubadlı şəhəri müzəffər Azərbaycan Ordusu tərəfindən azad olunub.

**Hazırladı: V.Orxan**

# Sibirdəki Koqalım şəhərində Heydər Əliyevin abidəsi qoyulub

Rusiyanın Xantı-Mansi Muxtar Dairəsinin Koqalım şəhərində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevə abidə ucaldılıb.




Heykəltaraş Aydın Zeynalovun müəllifi olduğu abidə Heydər Əliyevin 100 illik yubileyi şərəfinə ərsəyə gəlib.

Böyük dövlət xadimi Heydər Əliyev 1980-ci illərin əvvəlində SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyərkən o vaxt hələ qəsəbə olan, indi isə şəhərə çevrilən Koqalımın və Xantı-Mansi bölgəsində neft sənayesinin inkişafına da mühüm töhfə verib. Onun tapşırığına əsasən, qəsəbənin, həmçinin Sibirin neft hasilatçısı rayonlarının yol infrastrukturunun inkişafı üçün Azərbaycandan da podratçı təşkilatlar cəlb olunmuşdu. Koqalımdakı Bakı küçəsi Azərbaycan xalqının bu şəhərin inkişafına verdiyi töhfəni xatırladır. Heydər Əliyevin burada qoyulan abidəsi də xatirə rəmzi və xalqlar arasında dostluğun təcəssümüdür.

Müəllifi Aydın Zeynalov qeyd edib ki, abidə üzərində iş il yarıma yaxın davam edib: "Biz Heydər Əliyevin görkəmli şəxsiyyətini, onun təkcə şəhərin deyil, bütün Sovet İttifaqının inkişafındakı rolunu təsvir etməyi qarşımıza vəzifə qoymuşduq. Nəticədə hündürlüyü 4 metr olan abidə ilə bərabər, möhtəşəm kompleks yaradılıb. Heydər Əliyev qlobal şəxsiyyətdir. O, əsrlərin kəsişməsində həmişə doğru yolu seçən bir insan idi...".

Heykəltaraş bildirib ki, iş prosesində Heydər Əliyevin müxtəlif illərdə çəkilmiş fotoşəkillərini diqqətlə tədqiq edib: "Heydər Əliyev çöhrəsində xəfif təbəssümlə təsvir olunub. Mənə elə gəlirdi ki, Heydər Əliyev təkcə güclü, iradəli şəxsiyyət deyil, həm də çox mehriban, istiqanlı, gülərüz insandır. Bu keyfiyyətləri heykəldə çatdırmağa çalışdım".

# Tbilisidəki festivalda soydaşlarımızın aşıqlar qrupu iştirak edib

Tbilisi Konservatoriyasında Uşaq və Gənclər Etnoqrafik Ansamblları Festivalı keçirilib.



Tbilisi Bələdiyyə Məclisinin təşkilatçılığı ilə keçirilən festivalda müxtəlif mədəniyyətləri təmsil edən xor və orkestrlərlə yanaşı, Gürcüstanda yaşayan soydaşlarımızdan ibarət "Meydan" aşıqlar qrupu da iştirak edib.

Qrupun ifasında Azərbaycan aşıq sənəti nümunələri maraqla qarşılanıb.

Festivalın sonunda təltifetmə mərasimi olub.

"Meydan" aşıqlar qrupunun rəhbəri Nargilə Mehdiyevaya festivalın mükafatını Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev təqdim edib.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev tədbirin təşkilinə görə Tbilisi Bələdiyyə Məclisinə təşəkkürünü bildirib. Ölkələrimiz arasında mədəniyyət sahəsindəki əməkdaşlıqdan bəhs edən diplomat bu istiqamətdə həyata keçirilmiş birgə layihə və təşəbbüslər barədə də danışıb.

# "Qaçqın"ın yolu Almaniyadan düşəcək

Qırğızıstan rejissoru Dastan Japarın "Qaçqın" filminin Avropa premyerası Almaniyanın Kotbus şəhərində keçirilən Beynəlxalq Şərqi Avropa Kino Festivalında olacaq.

Noyabrın 7-dən 12-dək davam edəcək bu festivalın əsası 1991-ci ildə qoyulub. Şərqi və Mərkəzi Avropa filmlərinin nümayiş platforması sayılan festivalda bu il 11 ölkə iştirak edir.

"Qaçqın" filmində Mərkəzi Asiyanın dağlıq ərazisində gizli marşrut cızmış iki narkotik alverçisi Aza və Samatın başına gələnlərdən danışılır. Köləlikdən qaçan Nazik adlı gənc qıza rast gələndən sonra onların həyatı dəyişir. Nazik yenidən yerli cinayətkarların əlinə düşəndə Aza riskə gedərək onu qurtarmağa qərar verir...

Qırğız rejissorun filmi ilk olaraq bu il oktyabrın əvvəlində 29-cu Busan Beynəlxalq Kino Festivalında (Cənubi Koreya) nümayiş olunub.

**Gülcahan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2469
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641